*Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.*
*Heydər ƏLİYEV*

# DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

12 yanvar 2018-ci il | № 1-4 (9187) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiymәti 50 qəpik

## BU SAYIMIZDA

### "AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC İLƏ RUSİYA ŞİRKƏTLƏRİNİN ƏMƏKDAŞLIĞI MÜZAKİRƏ OLUNUB



*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbər heyəti ilə Rusiya Federasiyasının Birləşmiş Gəmiqayırma Korporasiyası, "Qazprombank" Səhmdar Cəmiyyəti və Rusiya İxrac Mərkəzinin nümayəndələri arasında işgüzar görüş keçirilib.*

Səh. 2

### BU İL BİZİM İLİMİZDİR



*İstəsək də, istəməsək də 365 və ya 366 günlük dövranını sürdükdən sonra tarixə çevrilən ilə əlvida deyirik. 2017-ci ilə dediyimiz kimi!*

2017-ci ildə də bir ilə sığmayan işlər gördük. İftixar, sevinc, qürur doğuran işlər. Bütün bunlara görə, xalqımız 2017-ci ili könül xoşluğu ilə yola saldı, yeni ili yeni ümidlərlə, yeni qələbələr sorağı ilə qarşıladı.

Səh. 3

### GƏMİÇİLİYİN MÜƏSSİSƏ VƏ TƏŞKİLATLARINDA İNSAN ALVERİNƏ QARŞI MÜBARİZƏ MÖVZUSUNDA MAARİFLƏNDİRİCİ TƏDBİRLƏR KEÇİRİLİB



*Azərbaycan Prezidenti İlham Əliyevin 24 iyul 2014-cü il tarixli 667 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın həyata keçirilməsi ilə bağlı Tədbirlər Planının 13.9-cu bəndində nəzərdə tutulmuş tədbirlərin icrasını təmin etmək məqsədi ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin struktur müəssisə və təşkilatlarında insan alverinə qarşı mübarizə mövzusunda maarifləndirici müşavirələr keçirilib.*

Səh. 4

### ADDA-DA "AÇIQ MİKROFON" GÜNÜ



*Azərbaycan Dövlət Dəniz Akademiyasında "Açıq mikrofon" günü keçirilib. Son illər Azərbaycan Dövlət Dəniz Akademiyasında aparılan çoxsaylı islahatların, yeniliklərin hər biri tələbəmərkəzli, tələbəyönümlü olmaqla Akademiya gənclərinin hərtərəfli inkişafına yönəlib.*

Səh. 5

### "AZƏRİ-ÇIRAQ-GÜNƏŞLİ"DƏN DAHA 500 MİLYON TONADƏK NEFT HASİL EDİLƏCƏK



*2050-ci ilədək Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) neft-qaz yataqları blokundan daha 500 milyon tona qədər neft hasil olunacaq.*

Səh. 6

### AZƏRBAYCAN İDMAN JURNALİSTLƏRİ ASSOSİASİYASI 2017-Cİ İLİN İDMAN LAUREATLARINI MÜKAFATLANDIRIB



*Azərbaycan İdman Jurnalistləri Assosiasiyası (AİJA) çoxillik ənənəsinə sadiq qalaraq, 2017-ci ilin idman laureatlarını mükafatlandırıb.*

Səh. 8

# PREZİDENT İLHAM ƏLİYEV BAKI BEYNƏLXALQ DƏNİZ TİCARƏT LİMANI KOMPLEKSİNDƏ RO-RO TERMİNALININ AÇILIŞINDA İŞTİRAK EDİB









***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 9-da paytaxtın Qaradağ rayonunun Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksində Ro-Ro terminalının açılışında iştirak edib, kompleksdə görülən işlərlə tanış olub.***

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Şahin Mustafayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Baş Plana əsasən, yeni liman kompleksinin hazırda inşası aparılan birinci fazası 12 yanalma körpüsünə malik olmaqla, yükaşırma imkanı illik 15 milyon ton yük, o cümlədən 100 min ədəd 20 futluq konteyner təşkil edir. Birinci faza çərçivəsində Ro-Ro tipli gəmilər üçün 2 körpü, 7 körpüdən ibarət universal quru yük və konteyner terminalı, 2 bərə körpüsü, eləcə də xidməti donanma gəmiləri üçün 1 körpü nəzərdə tutulub. Həmçinin xidməti donanma gəmiləri üçün təmir bazasının, limanın əməliyyat binasının, yük sahələri və anbarların, sərhəd və gömrük xidməti məntəqələrinin, ümumilikdə, 72 müxtəlif təyinatlı bina və qurğuların tikintisi, sərnişinlər üçün beynəlxalq terminalın layihələndirilməsi, kranların alınması, təchizatı və quraşdırılması aparılacaq. Kompleksdə xidməti donanma gəmiləri üçün körpünün uzunluğu 155 metrdir və buraya eyni zamanda 11 kiçik gəminin yan alması mümkündür.

Azərbaycanın regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsi siyasətinin tərkib hissəsi olan, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovuşuğunda yerləşən yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici və mühüm rola malikdir. Layihənin həyata keçirilməsinə Prezident İlham Əliyevin 2007-ci ildə imzaladığı Sərəncamla başlanıb. Yeni limanın məhz Ələt qəsəbəsində inşası təsadüfi deyil. Bu ərazi Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin Azərbaycan seqmentləri olan avtomobil və dəmir yolu xətlərinin kəsişməsində yerləşir və yeni limanın inşası ilə buraya su magistrallarının da əlavə edilməsi, mahiyyət etibarilə, bu ərazinin mühüm nəqliyyat qovşağına və yeni geniş logistik məkana çevrilməsinə imkan yaradır.

Dövlətimizin başçısının müvafiq Sərəncamının icrası ilə bağlı verilmiş tapşırığa əsasən, bu kompleksin inşası üçün 400 hektar torpaq sahəsi ayrılıb. Yeni limanın hazırda inşası aparılan birinci fazası ümumi ərazinin 117 hektarını əhatə edir. 2010-cu ildə Prezident İlham Əliyevin iştirakı ilə kompleksin təməli qoyulub, 2014-cü ildə isə birinci mərhələyə daxil olan liman qurğularından biri - iki körpüdən ibarət bərə terminalı istifadəyə verilib.

Prezident İlham Əliyevin "Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin tikintisinin sürətləndirilməsi sahəsində əlavə tədbirlər barədə" 2017-ci ildə imzaladığı Sərəncama əsasən yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin tikintisi üzrə layihənin davam etdirilməsi və yekunlaşdırılması üçün icra olunacaq işlərin sifarişçisi İqtisadiyyat Nazirliyi təyin edilib. Dövlətimizin başçısının bu istiqamətdə qarşıya qoyduğu vəzifələrin vaxtında və keyfiyyətli icrası üçün işlərin başlanma və tamamlanma tarixləri göstərilməklə Tədbirlər Planı işlənib hazırlanıb və uğurla icra edilir. Sifarişçi tərəfindən xarici və yerli mütəxəssislərin iştirakı ilə limanın Baş Planı təkmilləşdirilərək müvafiq qaydada razılaşdırılıb və təsdiq edilib, layihə qrafiki buna müvafiq olaraq yenilənib. Tədbirlər Planı ilə müəyyən edilmiş məqsədlərə nail olmaq üçün seqmentlər üzrə inşaat işlərində ikinövbəli iş rejimi tətbiq edilib. Nəticədə işlərin dinamikası əvvəlki dövrlərlə müqayisədə beş dəfə artıb. Hazırda tikinti işləri yüksək sürətlə davam etdirilir və bu işlər kompleksin bütün seqmentlərini əhatə edir. Tikinti işlərinə 1500-ə yaxın işçi qüvvəsi və 300-ə qədər müxtəlif təyinatlı inşaat texnikası cəlb olunub. İnşaat işlərinin müvafiq müqavilələrə əsasən liman ərazisinin iki hissəsində - quru və dəniz seqmentlərində aparılması nəzərdə tutulur. Görülən işlər Xəzər dənizində üzən gəmilərin limana təhlükəsiz və sərbəst yanalmasını təmin etmək imkanı verir. Hazırda limana çəkisi 7-8 min tonadək gəmilər daxil olur. Layihələndirmə zamanı liman akvatoriyasında dərinliyin 7 metrdən 9 metrə qədər artırılma imkanı da nəzərə alınıb ki, bu da gələcəkdə çəkisi 12 min tona qədər olan gəmilərin də sərbəst yanalmasını təmin edəcək.

Prezident İlham Əliyevə yeni Ro-Ro terminalı barədə məlumat verildi. İldə 60 minə yaxın TIR və ya 1,8 milyon ton yük qəbul etmək imkanında olan terminal ən müasir texniki tələblərə uyğun tikilib. Terminaldakı birinci körpünün illik yükaşırma qabiliyyəti 800 min ton, ikinci körpününkü isə 1 milyon tondur. Ro-Ro terminalı iki yanalma körpüsündən ibarətdir. Birinci körpünün uzunluğu 222 metr, ikinci körpünün uzunluğu isə 190 metrə yaxındır. Terminal daşımaların avtomobil-su və su-avtomobil seqmentlərində təkərli texnikanın daşınması üçün nəzərdə tutulur.

Dövlətimizin başçısı terminalın açılışını etdi.

Buradakı sistem suyun səviyyəsinin enib-qalxmasından asılı olmayaraq gəmilərin təhlükəsiz şəkildə körpüyə yanalmasını təmin edir. Layihə qrafikinə əsasən, bu il yanvarın sonunadək digər yeddi ümumi yük körpüsünün tikintisi tamamlanacaq. 2018-ci ilin birinci rübünün sonunadək isə anbarların, yardımçı binaların, digər əlaqəli infrastruktur obyektlərinin inşasının, onların mühəndis-kommunikasiya xətlərinin çəkilməsinin, həmçinin yardımçı sistemlərin quraşdırılmasının yekunlaşdırılması nəzərdə tutulur. Limanın əməliyyat binasının inşası isə bu ilin mayında bitəcək.

*(Ardı 2-ci səhifədə)*





*(Əvvəli 1-ci səhifədə)*

# PREZİDENT İLHAM ƏLİYEV BAKI BEYNƏLXALQ DƏNİZ TİCARƏT LİMANI KOMPLEKSİNDƏ RO-RO TERMİNALININ AÇILIŞINDA İŞTİRAK EDİB






Layihə çərçivəsində müasir tələblərə cavab verən informasiya texnologiyaları və təhlükəsizlik infrastrukturunun yaradılmasına xüsusi diqqət göstərilir. Bu məqsədlə liman ərazisində əməliyyatların səmərəli idarə olunmasını təmin edəcək Liman İdarəetmə və İnformasiya Sisteminin və digər informasiya texnologiyaları komponentlərinin tətbiqi, eləcə də Gəmilərin və Liman Vasitələrinin Mühafizəsi üzrə Beynəlxalq Kodeksin tələblərinə uyğun mühafizə sisteminin yaradılması nəzərdə tutulur. İnformasiya texnologiyaları komponentinin tətbiqi ilə bilavasitə liman əməliyyatlarının səmərəliliyinin yüksəldilməsi təmin ediləcək. Ro-Ro terminalında tətbiq edilən və tam avtomatlaşmış informasiya texnologiyaları modullarından biri olan Liman Əməliyyat İdarəetmə Sistemi bütün prosesləri rahat və şəffaf şəkildə həyata keçirməyə imkan verir. Belə ki, Azərbaycanın dövlət sərhədini keçən və bu limana istiqamətlənən yükün elektron bəyannaməsi Dövlət Gömrük Komitəsinin xətti ilə buradakı Əməliyyat İdarəetmə Sisteminə daxil olur. Nəticədə yükün limana gəlmə tarixi bəlli olur, onun gözləmə ərazisində yeri ayrılır, ödəmə xərci onlayn formada daşıma şirkətinə göndərilir. Limana daxil olan nəqliyyat vasitəsinin qeydiyyat nişanına əsasən yükə dair məlumat əməliyyat sistemində əks olunur və yük sahibi bu məlumatı müşahidə edə bilir. Sənədləşdirmə bitdikdən sonra TIR gəmiyə yüklənir, təyinat limanı isə yük, onun çatdırılma vaxtı və gəmi barədə məlumat əldə edir. Hazırda bu sistem vasitəsilə müvafiq dövlət və özəl qurumların, eləcə də Gürcüstan, Qazaxıstan və Türkmənistan limanlarının şəbəkəyə qoşulması işləri aparılır.

Sonra dövlətimizin başçısına hazırda Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin inşaat ərazisində görülən işlər barədə məlumat verildi.

Prezident İlham Əliyev inşaat ərazisini gəzdi, işlərin gedişi ilə yaxından tanış oldu.

Yeni Bakı limanının tikintisində ən müasir standartlara cavab verən son mühəndislik yeniliklərindən istifadə olunur.

Layihə çərçivəsində, həmçinin gəmilərdən toplanmış neft tərkibli və məişət sularının təmizlənməsi üçün Xəzər dənizi hövzəsində ilk dəfə ən son texnologiyaya əsaslanan suyun bioloji təmizlənməsi qurğuları tikilib. İndiyədək 11 dəmir yolu xəttindən ibarət vaqonların qəbulu, göndərilməsi və çeşidlənməsi parkı yaradılıb.

Yükləmə-boşaltma əməliyyatlarının səmərəliliyinin yüksəldilməsi məqsədilə Almaniyanın “Ardelt” şirkətindən müxtəlif yük təyinatlı yeni portal texnika alınıb və hazırda quraşdırılması həyata keçirilir.

Yeni liman ötən il istismara verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti üçün bilavasitə yükcəmləyici məntəqə funksiyasını yerinə yetirəcək. Beləliklə, Şimal, Cənub, Şərq və Qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəyə daxil olan yük axınlarının yeni liman kompleksində cəmlənərək, buradan Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə Avropa istiqamətində və ya gəmilər vasitəsilə Şərq istiqamətində nəql olunmasını təmin edən səmərəli və dayanıqlı logistik zəncirin formalaşdırılması üçün zəmin yaranacaq. Yeni limanın ərazisi də daxil olmaqla ətraf ərazilərdə azad iqtisadi zonanın yaradılması nəzərdə tutulur ki, bu da mühüm nəqliyyat qovşağı kimi limana daha geniş tranzit və daşıma imkanları təmin edəcək.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu layihələr ölkə iqtisadiyyatının, xüsusilə qeyri-neft sektorunun inkişafında müstəsna rolu olan nəqliyyat infrastrukturunun müasirləşdirilməsinə, tranzit imkanlarının genişləndirilməsinə mühüm töhfə verir, Azərbaycanın tranzit potensialını gücləndirir.

# “AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ” QSC İLƏ RUSİYA ŞİRKƏTLƏRİNİN ƏMƏKDAŞLIĞI MÜZAKİRƏ OLUNUB





***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin rəhbər heyəti ilə Rusiya Federasiyasının Birləşmiş Gəmiqayırma Korporasiyası, “Qazprombank” Səhmdar Cəmiyyəti və Rusiya İxrac Mərkəzinin nümayəndələri arasında işgüzar görüş keçirilib.***

Görüş zamanı qonaqlara “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC haqqında ətraflı məlumat verilib. Gəmiçiliyin fəaliyyətini əks etdirən təqdimat nümayiş olunub. Bildirilib ki, AXDG donanmaları müxtəlifliyinə və funksionallığına görə dünyada unikaldır.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin sədri Rauf Vəliyev və rusiyalı qonaqlar əməkdaşlıq haqqında fikir mübadiləsi aparıblar. İşgüzar əlaqələrin perspektivlərini müzakirə ediblər.

Tədbirdə “Krasnoye Sormovo” zavodunda reallaşdırılan son layihələrin təqdimatı da olub. Zavodda hazırda tikilən və inşa ediləbiləcək müasir tipli gəmilər, eləcə də “Krasnoye Sormovo” zavodunun daxil olduğu Birləşmiş Gəmiqayırma Korporasiyası haqqında ətraflı məlumat verilib. Qeyd edilib ki, 2007-ci ildə yaradılan Korporasiya özündə gəmiqayırma sahəsində 40 müxtəlif təyinatlı müəssisə və zavodu birləşdirir.

Birləşmiş Gəmiqayırma Korporasiyasının vacib strukturlarından olan “Krasnoye Sormovo” zavodunun Azərbaycanla dərin tarixi əlaqələrindən danışan qonaqlar bildiriblər ki, bu zavod hələ 19-cu əsrdə Azərbaycan üçün gəmilər tikirdi. 1971-ci ildən zavodda Azərbaycan gəmiçiliyi üçün maye və quru yüklər daşıyan 17 gəmi inşa edilib.

Görüşdə iştirak edən Rusiya İxrac Mərkəzi və “Qazprombank” SC-nin nümayəndələri də təmsil etdikləri qurumlar haqqında təqdimatla çıxış ediblər.



# TACİKİSTANIN AZƏRBAYCANDAKI SƏFİRİ GƏMİÇİLİKDƏ OLUB



***Yanvarın 8-də “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-də Tacikistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rustam Soli ilə görüş keçirilib.***

Gəmiçiliyin rəhbəri Rauf Vəliyev qonağa Azərbaycanda dəniz nəqliyyatı sahəsində görülən işlər, donanmanın yenilənməsi istiqamətində əldə olunan nailiyyətlər, respublikamızın nəqliyyat dəhlizlərinin inkişafına verdiyi töhfə barədə ətraflı məlumat verib.

Səfir Rustam Soli Gəmiçiliyin tranzit imkanları ilə yaxından tanış olub. Bildirib ki, Tacikistan Xəzər dənizi üzərindən də beynəlxalq bazarlara yük daşımaqda maraqlıdır.

Görüşdə ikitərəfli əməkdaşlığın perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

# XƏZƏRYANI ÖLKƏLƏR GƏMİLƏRƏ NƏZARƏT PRİNSİPİNİ DƏYİŞİR

***Xəzəryanı dövlətlər limanlarda gəmilərə vahid dövlət nəzarəti rejiminin tətbiqi barədə qərar qəbul edib.***

Bu cür vahid yanaşma regionda dəniz gəmilərinin texniki təhlükəsizliyinin artırılmasına, standartlara cavab verməyən gəmilərin istismarını aradan qaldırmağa imkan verəcək. Bu addım öz növbəsində gəmidə heyət üzvlərinin sağlamlığını yüksəltməyə, nəqliyyat vasitələrinin və yüklərin mühafizəsinin gücləndirilməsinə gətirib çıxaracaq.

Qeyd edək ki, hazırda Xəzər dənizində 5 Xəzəryanı ölkəyə məxsus 1600 gəmi üzür.



# RUSİYA İLƏ AZƏRBAYCAN ARASINDA DƏNİZ TURLARININ TƏŞKİLİNƏ DAİR MEMORANDUM İMZALANIB









***“Moskva Çay Gəmiçiliyi” ASC-nin Baş direktoru Konstantin Anisimovun rəhbərlik etdiyi nümayəndə heyəti “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-də olub. Görüş zamanı tərəflər Xəzər dənizində PV300VD layihəli “Pyotr Velikiy” adlı sərnişin gəmisini istismar etməklə dəniz turlarının təşkili haqqında memorandum imzalayıblar.***

Rusiyalı qonaqlar bildiriblər ki, Bakı güclü turizm imkanına malikdir. Bu baxımdan, dəniz səyahətlərinin təşkili Azərbaycana gələn turistlərin sayının daha da artmasına və ölkədə turizmin inkişafına müsbət təsir göstərəcək.

“AXDG” QSC-nin sədri Rauf Vəliyev qeyd edib ki, Xəzər dənizində sahilyanı ölkələrin iştirakı ilə gəmi turlarının-kruizlərin təşkili böyük perspektiv vəd edir.

Bu layihənin gerçəkləşməsi dəniz nəqliyyatı sahəsində Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında əməkdaşlığın gücləndirilməsini təşviq edəcək, ölkələrin turizm potensialından istifadə üçün geniş imkanlar yaradacaq.

Müzakirələr zamanı bildirilib ki, bu layihə ilə təkcə Xəzəryanı ölkələrdən deyil, ABŞ, Avstraliya, Avropa və Çindən olan turistləri də cəlb etmək mümkün olacaq.

Danışıqların yekununda “Moskva Çay Gəmiçiliyi” ASC-nin Baş direktoru Konstantin Anisimov və “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin sədri Rauf Vəliyev əməkdaşlığa dair birgə memorandum imzalayıblar.

Memoranduma əsasən, 2019-cu ilin sonuna kimi hazırda tikilməkdə olan “Pyotr Velikiy” gəmisi ilə Bakıya turistlərin səfəri təşkil ediləcək.

Həmin gəmi 310 sərnişin tutumuna və yüksək rahatlığa malik olacaq. Kruiz layneri vasitəsi ilə sərnişinlər Qara dənizə, Rusiyanın liman şəhərlərinə, Xəzəryanı ölkələrə səyahət edəbiləcəklər. Burada fitnes zalı, çimərlik hovuzu, restoranlar, kinoteatr zalları və digər istirahət otaqları olacaq.

Gəminin texniki göstəriciləri ona Xəzərdə mövcud limanlara yan almağa imkan verəcək. Uzunluğu 141, eni 16.82 metr olan gəmidə turistlərə 90 nəfərlik heyət xidmət göstərəcək.

Görüşdə növbəti dövrlərdə yeni gəmilərin inşası barədə niyyət dilə gətirilib.

Tərəflər əməkdaşlığın səmərəliliyi üçün mütəmadi təcrübə mübadiləsi aparacaqlar.

Səfərlər üçün ilkin mərhələdə Həştərxan-Bakı marşrutu araşdırılacaq. 2020-ci ilədək isə turların əhatə dairəsi genişləndiriləcək. Bu məqsədlə tərəflər Qara dəniz limanları, Rusiyanın daxili suları, Həştərxan və Xəzər dənizindəki digər limanların, Moskva-Bakı, Həştərxan Maxaçqala-Bakı, Bakı-Ənzəli-Nouşehr-Türkmənbaşı-Aktau-Həştərxan, Rusiya-Həştərxan-Bakı arasında dairəvi reyslərin təşkili ilə bağlı araşdırma aparacaqlar.

# “TÜRK AXINI” BORU KƏMƏRİ MAYDA TÜRKİYƏ SAHİLLƏRİNƏ ÇATACAQ



***“Türk axını” qaz boru kəməri (“Turkish Stream”) may ayında Türkiyə sahillərinə çatacaq.***

Anadolu agentliyi xəbər verir ki, bu barədə “TürkAkım” şirkətinin sözçüsü Aslı Esen deyib. O qeyd edib ki, layihə üzrə qoşa xəttinin ümumilikdə 700 kilometrinin inşası tamamlanıb və boru kəməri 1860 kilometr uzunluğunda olacaq.

“Pioneering Spirit” adlı boru döşəmə gəmisinin gündəlik orta hesabla 4 kilometr boru inşa edir. Layihə ildə 15 milyon evin enerji ehtiyacını qarşılayacaq. 2019-cu ilin sonunda ilk qazı Türkiyəyə çatdırmağı planlaşdırırıq”, - deyə A.Esen əlavə edib.

Qeyd edək ki, “Türk axını” boru kəmərinin dəniz hissəsinin inşasının 38 faizi yekunlaşıb. İki xətdən ibarət olan və hər biri 15,75 milyard kubmetr təbii qaz daşıyacaq layihənin dəniz hissəsinin tikintisini Rusiyanın “Gazprom” şirkətinin 100 faizlik törəməsi olan “South Stream Transport B.V.” həyata keçirir.

“Türk axını” boru kəməri ilə Rusiya təbii qazının Türkiyəyə və Avropaya nəqli planlaşdırılır. Layihə Qara dəniz üzərindən Türkiyənin Avropa hissəsinədək və daha sonra Yunanıstan sərhədinədək qaz boru kəmərinin tikintisini nəzərdə tutur. Kəmərin dəniz hissəsinin uzunluğu 910 kilometrə yaxın, quru hissəsi isə Türkiyə ərazisi üzrə 180 kilometrdir. Boru kəmərinin birinci xətti Türkiyə bazarı, ikincisi Cənubi və Cənub-Şərqi Avropa ölkələri üçün nəzərdə tutulur. Layihənin ümumi dəyəri 11,4 milyard avro həcmində qiymətləndirilir.





## GƏMİÇİLİK MƏCBURİ KÖÇKÜN AİLƏLƏRİNİ BAYRAM SOVQATI İLƏ SEVİNDİRİB

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin nümayəndələri məcburi köçkün ailələrini bayram sovqatı ilə sevindiriblər.***

QSC-nin nümayəndələri Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində gəmiçiliyin himayəsində olan qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdığı qəsəbələrə baş çəkiblər. Belə ki, dənizçilər həmişə olduğu kimi, bu dəfə də əslən Xocalı, Kəlbəcər, Laçın, Ağdam və Şuşadan olan və Goranboy rayonunda müvəqqəti məskunlaşan 3350 məcburi köçkün ailəsinə zəruri ərzaq məhsullarından ibarət bayram sovqatı paylayıblar. Bayram sovqatına düyü, şəkər tozu, çay, un, yağ və digər zəruri ərzaq məhsulları daxil edilib.

Məcburi köçkünlər adından çıxış edənlər Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında aparılan uğurlu siyasət nəticəsində doğma torpaqlarına qayıdacaqlarına əmin olduqlarını ifadə ediblər. Onlar göstərilən daimi diqqət və qayğıya görə ölkə və "AXDG" QSC rəhbərliyinə minnətdarlıqlarını bildiriblər, bayram arzularını dilə gətiriblər.

## GƏMİÇİLİYİN İNSAN RESURSLARININ İDARƏEDİLMƏSİ DEPARTAMENTİ RƏHBƏRİNİN PEŞƏKAR İDARƏETMƏ FORUMUNDAKI MƏRUZƏSİ MARAQLA QARŞILANIB

***Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) İqtisadiyyat və Menecment fakultəsi tələbələrinin təşəbbüsü ilə Peşəkar İdarəetmə Forumu keçirilib.***



Foruma bir çox nüfuzlu şirkət və müəssisənin nümayəndəsi qatılıb və müxtəlif mövzularda məruzə ilə çıxış ediblər.

Peşəkar İdarəetmə Forumunda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin İnsan Resurslarının İdarəedilməsi Departamentinin rəisi Sevda Məmmədova da iştirak edib. Sevda Məmmədovanın təqdimatı gənclərə şəxsi karyera inkişafı planının hazırlanması mövzusunda olub.

İRİD rəhbəri tələbələrə fərdi və işgüzar keyfiyyətlərin analizi, özünün zəif və güclü tərəflərinin əsaslı təhlili, iş axtarışına əsaslı yanaşma, düzgün CV tərtibi, iş müsahibəsində davranış qaydaları, işəgötürəndə maraq yaratmaq üçün mütləq olan keyfiyyətlər haqqında nəzəri biliklər verib. Eyni zamanda, karyera inkişafı zamanı qarşıya çıxa biləcək maneələr və onların öhdəsindən gəlməyin yollarından bəhs edib.

Öz peşəkar təcrübəsindən də danışan Sevda Məmmədova çıxışından sonra tələbələri maraqlandıran sualları cavablandırıb.

Sonda Forumda iştirak edən tələbələrə sertifikatlar verilib.

Qeyd edək ki, Peşəkar İdarəetmə Forumunun məqsədi biznes sahəsində uğur qazanmış gənc mütəxəssislərin öz bilik, bacarıq və təcrübələrini tələbələrlə paylaşmasına imkanı yaratmaqdır.

## ESTONİYA "ŞİMAL-CƏNUB" NƏQLİYYAT MARŞRUTUNA QOŞULA BİLƏR

***Estoniya "Şimal-Cənub" nəqliyyat marşrutuna qoşula bilər.***



AZƏRTAC xəbər verir ki, bu barədə Estoniyanın Azərbaycandakı müvəqqəti işlər vəkili İndrek Kiverik deyib.

Estoniyanın Avropa İttifaqındakı nümayəndəliyinin illik yekunlarına toxunan İ.Kiverik Azərbaycanın Avropa istiqaməti və gündəmi təşkil edən strateji əməkdaşlıqla bağlı yeni sazişin imzalanması üzrə daha fəal işləməyə başladığını söyləyib.

İkitərəfli əlaqələrdən danışan İ.Kiverik nəqliyyat və logistika sahələrindəki imkanları xüsusilə qeyd edib: "Həm Azərbaycan, həm də Estoniya ticarət yollarının kəsişməsində yerləşir. Estoniya "Şimal-Cənub" nəqliyyat marşrutuna qoşula bilər. Estoniya Azərbaycan üçün Skandinaviya bazarına tramplindir".

## XOCASƏN GÖLÜNÜN SU BALANSINA DAİR MÜZAKİRƏLƏR APARILIB

Abşeron yarımadasının qərb hissəsində yerləşən Xocəsən gölü Abşeron göllərinin bərpası planı çərçivəsində təmizlənməsi nəzərdə tutulan əsas göllərdən biridir. Bu plana əsasən, Xocəsən gölü təmizlənəcək, ətraf ərazilərdə isə mədəniyyət və istirahət yerləri yaradılacaq. Hazırda sürətli urbanizasiya nəticəsində göl özünün əsas təbii su mənbələrinin bir qismindən məhrum olub. Bu təbii mənbələri Xocəsən qəsəbəsindən daxil olan çirkab suları əvəz edib. Göl hövzəsinə düşən yağıntıların da böyük bir qismi bu çirkab sulara qarışır. Əgər bu çirkab suları mərkəzləşdirilmiş kanalizasiya xəttinə qoşularsa, gölün səviyyəsi tədricən azala bilər. Bu isə Xocəsən gölünün axarsız gölə çevrilməsinə və tədricən şorlaşmasına səbəb olar. Buna görə də gölün səviyyəsini saxlamaq üçün göl hövzəsində sutəmizləmə qurğularının tikilməsi və təmizlənmiş suların gölə axıdılması daha məqsədəuyğun hesab olunur.



Bunu Azərbaycan Milli Elmlər Akademiyası akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun elmi seminarında Xəzər Universitetinin kafedra müdiri, coğrafiya üzrə fəlsəfə doktoru Rövşən Abbasov çıxışında deyib.

Coğrafiya İnstitutundan AZƏRTAC-a bildirilib ki, seminarda alim "Xocasən gölünün su balansı" mövzusunda məruzə ilə çıxış edib. Gölün su balansını hesablayarkən mövcud iqlim məlumatlarından, çöl işlərinin nəticələrindən və hidroloji modellərdən istifadə edən tədqiqatçı müəyyənləşdirib ki, gölə tökülən çirkab sularının dayandırılması qısa müddət ərzində göl ekosistemində müsbət nəticələrə səbəb olsa da, uzunmüddətli dövr üçün mənfi nəticələr də verə bilər.

Sonra mövzu ilə bağlı müzakirələr aparılıb, suallar cavablandırılıb.

# BU İL BİZİM İLİMİZDİR

*"Xəzər Dəniz Gəmiçiliyinin fəaliyyətini yüksək qiymətləndirirəm. Gəmiçiliyin fəaliyyəti beynəlxalq standartlara cavab verir. Gəmiçilik artıq gəlirlə işləyir, büdcəmizə böyük vergi ödəyir."*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*



***İstəsək də, istəməsək də 365 və ya 366 günlük dövranını sürdükdən sonra tarixə çevrilən ilə əlvida deyirik. 2017-ci ilə dediyimiz kimi!***

2017-ci ildə də bir ilə sığmayan işlər gördük. İftixar, sevinc, qürur doğuran işlər. Bütün bunlara görə, xalqımız 2017-ci ili könül xoşluğu ilə yola saldı, yeni ili yeni ümidlərlə, yeni qələbələr sorağı ilə qarşıladı.

Əsas odur ki, yola saldığımız il ölkəmizin tarixinə daha bir uğurlu il kimi daxil oldu. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan həyatın bütün sahələrində yeni nailiyyətlərə imza atdı. İnamımıza inam qatan 2017-ci il tarixdə dərin, köklü və nəticə verən iqtisadi islahatlar ili kimi qalacaq.

"Baxmayaraq ki, neftin qiyməti hələ də aşağı səviyyədədir və Azərbaycanda neftin hasilatı düşür, Azərbaycan apardığı islahatlar nəticəsində çətin vəziyyətdən şərəflə çıxa bilmişdir. Bunu beynəlxalq mötəbər təşkilatlar da qeyd edir. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına, ölkələrin iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə Azərbaycan dünya miqyasında 35-ci yerdədir. Bu, ilk növbədə, onu göstərir ki, ölkəmizdə aparılan çox ciddi islahatlar gözəl nəticələr verir".

Bu fikirləri Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bildirib.

Dövlətimizin başçısı deyib ki, 2017-ci ildə iqtisadiyyatın qeyri-neft sektoru 2 faizdən çox, iqtisadiyyatımızın qeyri-neft sənayesi 3 faizdən çox, kənd təsərrüfatı 4 faizdən çox, valyuta ehtiyatlarımız 4,5 milyard dollardan çox artmışdır.

Şübhəsiz ki, indiki şərait üçün bu, çox yaxşı nəticədir.

2017-ci ildə bir-birindən əlamətdar çox mühüm hadisələrin sevincini yaşadıq. "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi müddəti 2050-ci ilə qədər uzadıldı. Bir çoxlarına reallaşdırılması mümkünsüz görünən Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verildi. Ölkəmizdə iki milyardıncı ton neft hasil olundu. Azərbaycan özünün istehsal etdiyi ilk nəhəng sualtı tikinti gəmisini - "Xankəndi" gəmisini istismara verdi. Gəminin istismara verilməsi mərasimində çıxış edən Prezident İlham ƏLİYEV dedi:

- "Xankəndi" gəmisinin istifadəyə verilməsi doğrudan da tarixi hadisədir. Şadam ki, bu nəhəng gəmi Azərbaycanda, Bakıda inşa edilib. Bu gəmiyə "Xankəndi" adı verilib. Onun da çox böyük mənası var. Xankəndi bizim qədim şəhərimizdir. Xankəndinin adı bizim üçün əzizdir, doğmadır. Təsadüfi deyil ki, dünyada nadir standartlara cavab verən bu gəmiyə məhz bu ad verilmişdir.

Bu gəminin tikintisi ölkəmizin gücünü göstərir. Onu göstərir ki, bu gün Azərbaycanda istənilən böyük tikinti işi aparıla bilər. Bu gəminin inşası, istifadəyə verilməsi eyni zamanda onu göstərir ki, vaxtilə gəmiqayırma zavodunun tikintisi haqqında verilmiş qərar düzgün qərar idi. O vaxt bu qərarı verərkən və bu zavodun tikintisinə böyük sərmayə ayırarkən biz məhz bu məqsədi güdürdük ki, Azərbaycan istənilən növ gəmini inşa edə bilsin. Bu gəminin tikintisi eyni zamanda onu göstərir ki, elə bir gəmi yoxdur, biz gəmiqayırma zavodunda bunu inşa edə bilməyək. Hazırda dörd yeni gəmi tikilir - ikisi bərə, ikisi tanker.



"Xankəndi" gəmisinin tikintisi təqribən 400 milyon dollara yaxın vəsaitə başa gəlib. Bu da dövlətimizin gücünü göstərir. "Şahdəniz" qaz yatağının işlənilməsində bu gəminin əvəzsiz xidməti olacaq.

Bu gün mənə verilən məlumata görə, dünyada bu tipdə cəmi 10 gəmi var. Onlardan biri Azərbaycandadır, Azərbaycanda tikilib. Bu gəmidə çalışacaq heyət üzvlərinin əksəriyyəti Azərbaycan mütəxəssisləridir. Yəni, bu gəminin tikintisi ilə eyni zamanda treninq, hazırlıq işləri də aparılmışdır ki, bu gün həm gəminin kapitanı, həm də bütün heyət üzvlərinin əksəriyyəti yerli kadrlardır.

Bir daha demək istəyirəm ki, bu, çox əlamətdar, tarixi hadisədir. "Şahdəniz" qaz yatağının işlənilməsi bizim üçün strateji layihədir. Şadam ki, bu istiqamətdə də işlər yaxşı gedir. İndi mənə məlumat verilib ki, "Şahdəniz-2" qaz yatağının hazırlıq işlərinin səviyyəsi 96 faizdir. Demək olar ki, artıq bu layihə reallaşıb. Bu gəmisiz "Şahdəniz"i böyük səmərə ilə işlətmək mümkün deyil.

Biz bütün bu işləri ardıcıl şəkildə aparırıq. Sərmayə qoyulub, xarici tərəfdaşlarla işlər düzgün qurulub. Azərbaycanda platformalar, üzən qurğular, belə nəhəng gəmilər, Səngəçal terminalı, neft-qaz kəmərləri inşa edilir. Azərbaycanın neft-qaz sektoruna kompleks şəkildə, düşünülmüş və planlı surətdə böyük sərmayə qoyulub. Bu gün biz bunun nəticəsini görürük."

2017-ci ildə həmçinin dünyada ən nadir qurğu olan Heydər Əliyev adına yarımdalma qazma qurğusu istifadəyə verildi.

Ötən il Qarabağa "Böyük qayıdış"ın başlanğıcı qoyuldu. Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndi qısa müddətdə bərpa edildi və sakinlər uzun ayrılıqdan sonra yenidən doğma torpağa qovuşdular.

Dünyanın sivilizasiyalar və dinlərarası dialoq mərkəzlərindən biri kimi tanınan Azərbaycan ötən il IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, V Qlobal Bakı Forumu, "Asiyanın Qəlbi – İstanbul Prosesi" çərçivəsində 7-ci nazirlər konfransı kimi bir sıra mötəbər beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etdi.

2017-ci il Azərbaycanın İslam həmrəyliyi təşəbbüsü ilə çıxış etməsi ilə də yadda qaldı. Prezident İlham Əliyev tərəfindən elan olunmuş "İslam Həmrəyliyi İli" ölkəmizin müsəlman aləminə dəyərli töhfəsi oldu.

Ötən il Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli istiqamətində ölkəmizin mövqeləri daha da möhkəmləndi. Respublikamızın hərbi potensialının gücləndirilməsi istiqamətində bir sıra mühüm addımlar atıldı. Bu gün bütün beynəlxalq reytinqlər Azərbaycan Ordusunun nəinki regionda, dünya miqyasında güclü ordular sırasında olduğunu göstərir.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində Prezident İlham Əliyev 2017-ci ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılmış danışıqlardan da bəhs edib. Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinin xarici siyasətimizin əsas məsələsi olduğunu vurğulayıb. Azərbaycan Prezidenti deyib: "Bu istiqamətdə nəticələr olmasa da, hesab edirəm ki, 2017-ci ildə bizim mövqelərimiz daha da möhkəmləndi. Birinci onu qeyd etməliyəm ki, separatist rejim tərəfindən keçirilmiş qondarma "referendum" dünya ictimaiyyəti tərəfindən qəbul edilmədi. Nə qonşu ölkələr, nə Avropa İttifaqı, nə də ki bütün başqa ölkələr bu qondarma "referendum"u tanımadılar və beləliklə, bir daha göstərdilər ki, bütün dünya birliyi Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bu da təbiidir. Çünki Dağlıq Qarabağ bizim əzəli tarixi torpaqlarımızdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb, qurub. Sadəcə olaraq, mənfur qonşular tərəfindən bizim tarixi, dini abidələrimiz məhv edilibdir və uzun illərdir ki, bu torpaqlar işğal altındadır.

Hesab edirəm, ikinci önəmli məsələ ondan ibarətdir ki, Ermənistan qeyd-şərtsiz danışıqlara qoşuldu, baxmayaraq ki, şərt qoyurdu. Aprel məğlubiyyətindən sonra Ermənistan tərəfindən irəli sürülmüş heç bir şərt Azərbaycan tərəfindən qəbul edilmədi. Danışıqlar qeyd-şərtsiz bərpa edildi. Ümid edirəm ki, danışıqlar nəticəsində biz məsələnin həllinə nail ola bilərik. Əlbəttə ki, danışıqlarda bizim mövqeyimizi güclü iqtisadi və hərbi potensial daha da gücləndirir. Aprel məğlubiyyətindən sonra Ermənistan hələ də özünə gələ bilməyib. Hesab edirəm, bu məğlubiyyət onlar üçün yaxşı dərs olmalıdır, bir daha bütün dünyaya göstərməlidir ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq".

Bizim beynəlxalq əlaqələrimiz 2017-ci ildə daha da genişləndi. Dünyada özünü etibarlı tərəfdaş kimi göstərən Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı daha da artdı. Qonşu ölkələrlə qarşılıqlı hörmət əsasında dostluq əlaqələrimiz regional sabitliyə müsbət təsir göstərdi.

Azərbaycan, həmçinin IV İslam Həmrəylik Oyunlarına, Formula-1 Azərbaycan Qran-Prisinə, qadın voleybolçular arasında Avropa çempionatına və digər mötəbər yarışlara ev sahibliyi etməsi, beynəlxalq turnirlərdə qazandığı parlaq qələbələri ilə idman ölkəsi olduğunu bir daha təsdiqlədi.

Ötən il "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində də üz ağardan, iftixarı sinə qabardan o qədər yaxşı işlər görüldü ki…

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyevin dənizçilərə Yeni il təbrikində deyildiyi kimi: "2017-ci il "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti üçün də uğurlu oldu. Gəmiçiliyin beynəlxalq əlaqələrinin genişləndirilməsi, müstəqil Azərbaycanın üçrəngli bayrağı altında doğma sahillərdən uzaqlarda üzən gəmilərimizin sayının 13-ə çatdırılması ilə xarici donanmamızın mövqeyinin daha da möhkəmləndirilməsi, donanmalarımızın daha müasir gəmilərlə zənginləşdirilməsi, Bakı Gəmiqayırma Zavodunda uzunluğu 141, eni 16.9 metr, dedveyti 8009/5580 ton olan iki tankerin ilk polad lövhəsinin kəsilməsi kimi xoş hadisələr 2017-ci ili yaddaşımıza əbədi həkk etdi.

Dövlət başçımızın "Dənizçi günü" münasibəti ilə iyunun 24-də və Azərbaycanda sənaye üsulu ilə iki milyardıncı ton neftin hasil edilməsi münasibəti ilə noyabrın 7-də imzaladığı Sərəncamlarla 2 nəfərin "Azərbaycanın Əməkdar mühəndisi" fəxri adına, 1 nəfərin Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülməsi, 2 nəfərin üçüncü dərəcəli "Əmək" ordeni, 14 nəfərin "Tərəqqi" medalı ilə təltif edilməsi Gəmiçiliyin bütün kollektivinin əməyinə verilən yüksək qiymətin bariz nümunəsi idi.

Diqqət və qayğısını dənizçilərdən heç vaxt əsirgəməyən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin mayın 31-də Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin "Qubadlı" və "Cəbrayıl" gəmilərinin istismara verilməsi mərasimində iştirakı isə sevincimizə hədsiz sevinc qatmaqla yanaşı, cavabdeh olduğumuz iş üçün məsuliyyət hissimizi də birə-min artırdı."

Əslində təkcə 2017-ci ildəki yox, bütövlükdə QSC yarandıqdan sonra fəaliyyətinə ən dəqiq qiyməti də dövlətimizin başçısı verib: "Xəzər Dəniz Gəmiçiliyinin fəaliyyətini yüksək qiymətləndirirəm. Gəmiçiliyin fəaliyyəti beynəlxalq standartlara cavab verir. Gəmiçilik artıq gəlirlə işləyir, büdcəmizə böyük vergi ödəyir."

Yeni il yeni arzular, yeni diləklər, yeni ümidlər deməkdir. Yeni il görəcəyimiz yeni işlər, qazanacağımız yeni uğurlar, yeni zəfərlər deməkdir. 2017-ci ildə aparılan hərtərəfli iqtisadi islahatlar, reallaşdırılan layihələr artıq qlobal məkanın ən aparıcı və nüfuzlu ölkələrindən birinə çevrilən müstəqil Azərbaycanın gələcək inkişafı üçün çox gözəl üfüqlər, perspektivlər vəd edir.

Yurdumuza qədəm qoyan 2018-ci ildə bizi bir sıra əlamətdar hadisələr gözləyir. Azərbaycan Xalq Cümhuriyyətinin, Silahlı Qüvvələrimizin, parlamentimizin yaradılmasının 100 illik, ümummilli lider Heydər Əliyevin 95 illik yubileyləri qeyd olunacaq, ölkəmizdə növbəti Prezident seçkiləri keçiriləcək.

Bütün bunlarla yanaşı, 2018-ci il dənizçilər üçün həm də Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illik yubileyi ilə əlamətdar olacaq. Bəli, bu il bizim ilimizdir!

Qədəmlərin uğurlu olsun, 2018-ci il!

***Rasif TAHİROV***

# GƏMİÇİLİYİN MÜƏSSİSƏ VƏ TƏŞKİLATLARINDA İNSAN ALVERİNƏ QARŞI MÜBARİZƏ MÖVZUSUNDA MAARİFLƏNDİRİCİ TƏDBİRLƏR KEÇİRİLİB






***Azərbaycan Prezidenti İlham Əliyevin 24 iyul 2014-cü il tarixli 667 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın həyata keçirilməsi ilə bağlı Tədbirlər Planının 13.9-cu bəndində nəzərdə tutulmuş tədbirlərin icrasını təmin etmək məqsədi ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin struktur müəssisə və təşkilatlarında insan alverinə qarşı mübarizə mövzusunda maarifləndirici müşavirələr keçirilib.***

Rəhbər heyətlə yanaşı, şöbə, bölmə və sahələrdə çalışan işçilərin də iştirak etdiyi müşavirələrdə ölkəmizdə və dünyada insan alverinə qarşı mübarizə sahəsində görülən işlərdən ətraflı söz açılıb. Bildirilib ki, bu mübarizədə dövlətlərin beynəlxalq təşkilatlarla birgə fəaliyyət göstərməsi olduqca vacibdir. Azərbaycan bunu nəzərə alaraq beynəlxalq təşkilatlarla uğurlu işbirliyi həyata keçirir.

Tədbirlərdə son illər ölkəmizdə insan alverinə qarşı mübarizə sahəsində əldə edilmiş uğurlardan da danışılıb, Azərbaycanda bu sahə üzrə mükəmməl qanunvericilik bazasının mövcud olduğu və mütəmadi maarifləndirmə işlərinin aparıldığı diqqətə çatdırılıb.

Müşavirələrin sonunda iştirakçılara Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi tərəfindən hazırlanmış maarifləndirici bukletlər paylanılıb. Bu cür cinayət halları ilə qarşılaşdıqları təqdirdə dərhal Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin nəzdində 24 saat ərzində pulsuz fəaliyyət göstərən 152 qaynar xətt telefon xidmətinə müraciət etmələri tövsiyə olunub.

## DÜNYANIN ƏN NƏHƏNG GƏMİSİ CARİ İLDƏ İSTİSMARA VERİLƏCƏK



***Dünyanın ən böyük gəmisi - "Prelude" üzən platforması 2018-ci ildə istifadəyə veriləcək.***

CNN-Türk telekanalı xəbər verir ki, gəminin platforması 488 metr uzunluğundadır. Dörd futbol meydançası böyüklüyündə olan üzən təbii qaz axtarışı və emalı platformasının anbarları 175 olimpiya hovuzunu doldura biləcək qədər tutuma malikdir. İnşasına 2012-ci ildə başlanılan nəhəng gəmi bu il istifadəyə veriləcək.

"Shell" platforması Cənubi Koreyada "Samsung" şirkəti tərəfindən tamamlandıqdan sonra Avstraliya sahillərinə göndərilib. Qərbi Avstraliyadan 125 kilometr aralıda qurulan üzən platforma cari ildə dənizdə təbii qazın istehsalına və emalına başlayacaq. Maye qaz 162 dərəcəyədək soyudulacaq və sonra Asiya ölkələrinə gedən təbii qaz tankerlərinə yüklənərək təyin olunan yerlərə göndəriləcək.

"Prelude" gəmisinin ildə 5,3 milyon ton maye qaz emal edəcəyi bildirilir. Bunun Honq Konqun illik tələbatından daha böyük həcmdə olduğu vurğulanır.

## LİMANIN SATIŞI BARƏDƏ SAZİŞ İMZALANIB



***Yunanıstanın Özəlləşdirmə Fondunun məlumatına əsasən, Saloniki portunun 67 faizi 231,926 milyon avro qiymətinə tenderi qazanan "Deutsche Invest Equity Partners GmbH", "Belterra Investments Ltd" və "Terminal Link SAS" konsorsiumu tərəfindən yaradılan "South Europe Gateway Thessaloniki Limited" şirkəti tərəfindən alınıb.***

Saziş ölkənin Hesablama Palatası tərəfindən ratifikasiya olunub, Yunanıstanın Rəqabət Komissiyası tərəfindən imzalanması gözlənilir. Eyni zamanda, saziş parlament tərəfindən ratifikasiya olunmalıdır. Müqavilənin 2018-ci ilin birinci rübündə qüvvəyə minməsi gözlənilir. Müqaviləyə görə, 231,926 milyon avrodan əlavə limana yeddi il ərzində 180 milyon avro sərmayə qoyulmalıdır.

Qeyd edək ki, Saloniki limanının satılması ilə bağlı beynəlxalq tender 2014-ci ilin aprelində elan edilib. İkinci tura keçən şirkətlər arasında Rusiyanın dəmir yolları da olub və son məqamda onlar bu fikirdən daşındılar və 2051-ci ilə kimi limanın 67 faizini istifadə hüququnu tenderdə "South Europe Gateway Thessaloniki Limited" şirkəti qazanıb.

*İqbal Hacıyev*



## ŞANXAY LİMANI YÜKAŞIRMA QABİLİYYƏTİNƏ GÖRƏ ÖZ REKORDUNU YENİLƏYİB

***Çinin maliyyə-biznes mərkəzlərindən olan Şanxay şəhərinin dəniz limanı illik yükaşırma qabiliyyətinə görə öz rekordunu yeniləyib.***

Şanxay beynəlxalq limanının yaydığı məlumata görə, 2017-ci ildə limandan yola salınan və qəbul edilən konteynerlərin sayı 40 milyon TEU-nu (20 futluq konteyner ekvivalenti) ötüb. İnişil bu rəqəm 37,1 milyon TEU konteyner olmuşdu.

Qeyd edək ki, Şanxay limanından konteyner dövriyyəsinə 1978-ci ildə başlanılıb. Həmin il cəmi 7951 TEU konteyner yola salınıb və qəbul edilmişdi. Çinin son 4 onillikdə sürətli inkişafı xarici ölkələrlə ticarətin genişlənməsi ilə müşayiət olunub. Bu amil özünü Çinin limanlarının, xüsusən də Şanxay limanının yükaşırma qabiliyyətinin artmasında da göstərib. Belə ki, Şanxay artıq 2010-cu ildə yükaşırma qabiliyyətinə görə (29 milyon TEU konteyner) dünyanın ən böyük limanı ünvanına sahiblənib və o vaxtdan bəri liderliyini qoruyur.

Ötən ilin statistikasına əsasən, dünya limanlarının ilk beşliyində sonrakı yerləri Sinqapur, Şencen və Ninbo (hər ikisi Çin), Busan (Cənubi Koreya) tutur.

*Şahin Cəfərov*

# AZƏRBAYCANIN DƏNİZ NƏQLİYYATI SİSTEMİ BEYNƏLXALQ MİQYASDA ƏN YAXŞI NÜMUNƏLƏR SIRASINDADIR

## DÖVLƏT DƏNİZ ADMİNİSTRASİYASI 2017-Cİ İLDƏ GÖRÜLƏN İŞLƏRƏ DAİR HESABAT YAYIB

***2017-ci ildə Dövlət Dəniz Administrasiyası tərəfindən Azərbaycan Respublikasının Konstitusiyası, qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2006-cı il tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə" rəhbər tutularaq dəniz nəqliyyatı sahəsində dövlət siyasəti və tənzimlənməsi istiqamətində qanunvericiliklə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi təmin edilib.***

2017-ci ilin 28 may – 6 iyun tarixlərində dəniz nəqliyyatı sahəsi üzrə beynəlxalq konvensiyaların tələblərindən irəli gələn öhdəliklərin icra vəziyyətinin qiymətləndirilməsi məqsədi ilə Beynəlxalq Dəniz Təşkilatının Audit Ekspert Qrupu Dövlət Dəniz Administrasiyasında audit yoxlaması həyata keçirib. Bu müddət ərzində Beynəlxalq Dəniz Təşkilatı tərəfindən Azərbaycan Respublikasının dəniz nəqliyyatı sahəsində qoşulduğu beynəlxalq konvensiyaların tətbiqi səviyyəsinin yoxlanılması və qiymətləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasında fəaliyyət göstərən limanların akvatoriyaları daxil olmaqla bütün ərazi sularında dəniz üzgüçülüyünün təhlükəsizliyinin təmin edilməsi, gəmilərə dair tələblərə əməl olunmasına nəzarət mexanizmi, gəmilərin hərəkətinin idarə edilməsi, limanlara daxil olan və limanlardan çıxan gəmilərin beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq yoxlanılması və giriş-çıxışına icazə verilməsi, dəniz mühitinin mühafizəsi, eləcə də bu sahədə mütəxəssislərin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi prosesi dəqiq şəkildə və incəlikləri ilə araşdırılıb, gəmilərin beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq yoxlanılmasını həyata keçirən nəzarət müfəttişlərinin yalnız dənizçilərdən formalaşdırılması məqsədilə qanunvericiliyimizdə nəzərdə tutulan ixtisas tələbləri yüksək qiymətləndirilib, bu tələblərin və dəniz nəqliyyatı sahəsində formalaşdırılan digər bir sıra nəzarət mexanizmlərinin dəniz dövlətləri üçün ən yaxşı təcrübə ("Best practise") ola biləcəyi vurğulanıb. Bununla yanaşı Azərbaycanda dəniz nəqliyyatı sahəsində həyata keçirilən tədbirlərin, qəbul edilən normativ hüquqi aktların, gəmilərin standartlarına nəzarət və müfəttişlər tərəfindən yoxlanılmasının, Administrasiyanın tabeliyində olan liman kapitanlarının fəaliyyətinin, liman akvatoriyalarında və ümumiyyətlə Azərbaycan Respublikasının bütün ərazi sularında gəmilərin hərəkətinin idarə edilməsi sisteminin Beynəlxalq Dəniz Təşkilatının bütün tələblərinə uyğun olaraq yüksək səviyyədə təşkil olunması xüsusilə qeyd edilib və audit yoxlamasının tam obyektivliyə əsaslanan nəticələrinə görə Respublikamız 172 dünya dəniz dövləti sırasında ən qabaqcıllar olan Avropa dövlətlərini geridə qoyaraq statistika üzrə ön sırada yer tutub.

Azərbaycan Respublikasının dəniz nəqliyyatı sahəsində qoşulduğu Beynəlxalq Dəniz Təşkilatının konvensiyalarının tələblərinə uyğun olaraq və Beynəlxalq Dəniz Təşkilatının Üzv Dövlətlərinin Audit Sxemi (IMSAS) üzrə adıçəkilən Təşkilatın 4 dekabr 2013-cü il tarixli A.1070(28) nömrəli və 2 dekabr 2015-ci il tarixli A.1105(29) nömrəli Qətnamələrinə əsasən Azərbaycan Respublikasında Beynəlxalq Dəniz Təşkilatının audit yoxlamasına hazırlıq məqsədilə aidiyyəti dövlət orqanları tərəfindən təqdim olunan rəy və təkliflər nəzərə alınmaqla hazırlanan "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu 16 may 2017-ci il tarixində qəbul edilib.



Həmçinin Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin müddəalarının Azərbaycan Respublikasının 16 dekabr 2016-cı il tarixli 446-VQ nömrəli Qanunu ilə təsdiq edilən "Dəniz tələbləri ilə bağlı məsuliyyətin məhdudlaşdırılması haqqında" 1976-cı il tarixli Beynəlxalq Konvensiyaya dəyişikliklər edilməsi barədə" 1996-cı il tarixli Protokola uyğunlaşdırılması məqsədi ilə hazırlanan "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun layihəsi "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanuna uyğun olaraq hazırlanaraq göndərilib və qeyd olunan qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə çıxarılaraq 20 oktyabr 2017-ci il tarixində qəbul olunub.

Aidiyyəti dövlət orqanları tərəfindən rəy və təkliflər nəzərə alınmaqla hazırlanan "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında dəniz ticarət gəmiçiliyi sahəsində əməkdaşlıq haqqında Saziş" 8 avqust 2017-ci il tarixində imzalanıb.

2017-ci il ərzində Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən 140 gəmidə, xarici dövlətlərin bayrağı altında üzən 59 gəmidə geniş nəzarət yoxlaması həyata keçirilib. Aparılan yoxlamalar nəticəsində Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərdə ümumilikdə 1365 uyğunsuzluq halı aşkar edilib. Bu uyğunsuzluqlardan 811-i "Dənizdə insan həyatının mühafizəsi haqqında Beynəlxalq Konvensiya"nın (SOLAS), 333-ü "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair Beynəlxalq Konvensiya"nın (STCW), 156-sı "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınmasına dair Beynəlxalq Konvensiya"nın (MARPOL), 7-si "Dənizdə gəmilərin toqquşmasının qarşısının alınmasına dair beynəlxalq qaydalar haqqında Konvensiya"nın (COLREG) və 58-i digər beynəlxalq konvensiyaların tələblərinin pozulması ilə əlaqədar olub. Eyni zamanda, beynəlxalq konvensiyalar üzrə xarici dövlətlərin bayrağı altında üzən gəmilərdə ümumilikdə 466 uyğunsuzluq halı aşkar edilib. Həmin uyğunsuzluqlardan 370-i "Dənizdə insan həyatının mühafizəsi haqqında Beynəlxalq Konvensiya"nın (SOLAS), 27-si "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınmasına dair Beynəlxalq Konvensiya"nın (MARPOL), 35-i "Yük nişanı haqqında Beynəlxalq Konvensiya"nın (ICLL), 3-ü "Dənizdə gəmilərin toqquşmasının qarşısının alınmasına dair beynəlxalq qaydalar haqqında Konvensiya"nın (COLREG) və 29-u digər beynəlxalq konvensiyaların tələblərinin pozulması ilə əlaqədar olub. Uyğunsuzluqların aradan qaldırılmasına nəzarət edilərək bütün uyğunsuzluqların aradan qaldırılmasına nail olunub.

Qeyd edilən dövr ərzində Azərbaycan Respublikasının dəniz limanlarına 16219 gəminin girişi və 16259 gəminin çıxışı rəsmiləşdirilib, həmçinin 3624 gəmi jurnalı təsdiq edilərək təhvil verilib, xarici dövlətlərin bayrağı altında üzən 1418 gəmiyə bələdçi xidməti göstərilib.

Bundan əlavə, Administrasiyanın tabeliyində Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzinin Uzaq Məsafədən Tanınma və İzləmə Milli Mərkəzi tərəfindən 13175 gəmi izlənərək keçirilib, gəmilərə 788 hava haqqında məlumat və 1164 fırtına xəbərdarlığı ötürülüb, eləcə də 440 gəminin yedəkləmə əməliyyatı nəzarətə götürülərək təhlükəsiz yedəklənməsi əməliyyatı yerinə yetirilib. Həmçinin gəmilərdə xəstə olan dənizçilərlə bağlı 5 məlumat daxil olub və gəmilərdən həmin dənizçilərin sahilə təxliyə edilməsi təşkil edilərək müvafiq tədbirlər həyata keçirilib. Eyni zamanda, Azərbaycan Respublikasının ərazi sularında yerləşən və dəniz limanlarına gedən dəniz kanallarından, farvaterlərdən, tövsiyə yollarından kənarlaşma halları aşkar edilib və qəza hallarının baş verməsinin qarşısı alınaraq 4 gəminin hərəkət istiqamətinin koordinasiyası təmin edilib.

Hesabat dövrü ərzində Administrasiya tərəfindən gəmilərə "Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ haqqında şəhadətnamə", "Mülkiyyət hüququ haqqında şəhadətnamə", "Minimum heyət tərkibi haqqında şəhadətnamə", "Neftlə çirklənmədən vurulan zərərə görə mülki məsuliyyətin maliyyə təminatı haqqında şəhadətnamə", "Əmniyyətli İdarəetmə haqqında şəhadətnamə", "Bunker yanacağı ilə çirklənmə nəticəsində vurulan zərərə görə mülki məsuliyyət ilə bağlı sığorta və ya digər maliyyə təminatı haqqında sertifikat", "Azərbaycan Respublikasının Dövlət gəmi reyestrindən və berbout-çarter reyestrindən çıxarış" və "Gəmi tarixinin fasiləsiz qeydlər sənədi" verilib.

Həmçinin gəmiçilik şirkətlərinə "Dənizçilik şirkətinin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamə" təqdim edilib, müxtəlif təyinatlı gəmilər Azərbaycan Respublikasının Dövlət gəmi reyestrində və berbout-çarter reyestrində qeydiyyata alınıb, gəmilər adıçəkilən reyestrlərdə təkrar qeydiyyata alınaraq onlara müvafiq şəhadətnamələr verilib.

Eyni zamanda gəmilərin "Dənizdə insan həyatının mühafizəsinə dair təlim və məşğələ üzrə təlimat"ı, "Yüklərin bərkidilməsi üzrə rəhbərliyi", "Yanğınla mübarizə planının sxemi", Gəmi qəza yedək əməliyyatları planı", "Yanğınla mübarizə üzrə təlimə dair təlimat"ı, "Neftlə çirklənməyə qarşı fövqəladə mübarizə planı", "Gəminin enerji effektivliyinin idarə olunması planı" və "Dəniz mühitinin gəmilərdən çirklənməsinə qarşı fövqəladə mübarizə planı" təsdiq edilib.

Yuxarıda qeyd edilən müddət ərzində Administrasiyanın əməkdaşları tərəfindən "Gəmi və Liman Vasitələrinin Mühafizəsinə dair Beynəlxalq Məcəllənin" (ISPS Code) tələblərinə əsasən Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən 38 gəmidə yeniləmə, 11 gəmidə ilkin, 19 gəmidə ara yoxlaması keçirilib və həmin gəmilərə "Gəminin "Gəmi və liman vasitələrinin mühafizəsi haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında şəhadətnamə" verilib. Həmçinin 2 limanda yoxlama keçirilərək onlara "Limanın "Gəmi və liman vasitələrinin mühafizəsi haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında şəhadətnamə" verilib.

Qeyd edilən dövr ərzində Dənizçinin şəxsiyyət sənədi, Dənizçinin qeyd kitabçası hazırlanaraq sahiblərinə təqdim edilib.

"Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair" Beynəlxalq Konvensiyanın, eləcə də "Azərbaycan Respublikasının nəqliyyat donanması gəmilərində heyət üzvlərinin sertifikatlaşdırılması haqqında Əsasnamə"nin tələblərinə uyğun olaraq dənizçilərə sertifikat (diplom) və xüsusi hazırlıq şəhadətnaməsi verilib.

Bunlarla yanaşı, "Tanınmış Təşkilatlar haqqında" Məcəllənin tələblərinə əsasən Tanınmış Təşkilat və ya Təsnifat Cəmiyyətinin fəaliyyətinin qiymətləndirilməsi, onun beynəlxalq konvensiyaların və yerli qanunvericiliyin tələblərinə uyğunluğunun müəyyənləşdirməsi məqsədi ilə "Bureau Veritas" təsnifat cəmiyyətinin və "Xorvatiya Gəmiçilik Registri" təsnifat cəmiyyətinin yoxlanılması həyata keçirilib.

Həmçinin "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası və Azərbaycan Respublikasının Müdafiə Nazirliyi arasında əməkdaşlığa dair Təlimat" və "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi arasında əməkdaşlığa dair Fəaliyyət Planı" imzalanıb.

Dövlət Dəniz Administrasiyasının Aparatında çalışan dövlət qulluqçularının təlim-tədrisi ilə bağlı məsələlərə xüsusi diqqət ayrılıb. Administrasiyanın əməkdaşlarının beynəlxalq tədbir və təlimlərdə iştirakı təmin olunub. Bütün bunlar qabaqcıl ölkələrin dəniz nəqliyyatı sahəsində təcrübəsinin öyrənilməsinə və Azərbaycanın beynəlxalq səviyyədə tanınmasına xidmət etməkdədir. Əməkdaşlar ezamiyyələrə göndərilərkən onların qulluq funksiyalarına və dil bilgilərinə xüsusi diqqət yetirilib.

Dəniz nəqliyyatı sahəsi ilə bağlı inzibati məsuliyyəti müəyyən edən normativ hüquqi aktların, İnzibati Xətalar Məcəlləsinin və Ticarət Gəmiçiliyi Məcəlləsinin müvafiq hissələrinin bir daha nəzərdən keçirilməsini, dəyişikliklərin edilməsini, inzibati prosedurların yenidən işlənib hazırlanmasını nəzərdə tutan "Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində məsuliyyətin artırılmasında Dövlət Dəniz Administrasiyasına dəstək" adlı Tvinninq layihəsi çərçivəsində "Neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında 1992-ci il tarixli Beynəlxalq Konvensiya və Neftlə çirklənmə zamanı dəyən ziyanın kompensasiyası üzrə Beynəlxalq Fondun yaradılması haqqında Beynəlxalq Konvensiya", "Müxtəlif növ gəmilərdə baş vermiş real hadisələr üzrə inzibati icraatın təhlili", "Dənizdə təhlükəli və zərərli maddələrin daşınması ilə əlaqədar dəymiş ziyana görə öhdəlik və təzminat üzrə Beynəlxalq Konvensiya", "Bunker yanacağı ilə çirklənmə nəticəsində vurulan zərərə görə mülki məsuliyyət haqqında Beynəlxalq Konvensiya", "Batmış gəmilərin qaldırılması haqqında Nayrobi Beynəlxalq Konvensiyası", "Gəmilərin təhlükəsiz və ətraf mühitə uyğun şəkildə səmərəli utilizasiyasına dair Honq Konq Konvensiyası", 2005/35/EC saylı Avropa Parlamentinin Direktivi, "Beynəlxalq Dəniz Təşkilatının Üzv Dövlətlərinin Audit Sxemi (IMSAS) üzrə Azərbaycan Respublikasında həyata keçirilmiş yoxlamanın nəticələrinə əsasən aşkar edilən bayraq nəzarəti müfəttişlərinin kvalifikasiyasına dair uyğunsuzluğun aradan qaldırılması haqqında", "Beynəlxalq Dəniz Təşkilatının Konvensiyaları və "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" Beynəlxalq Konvensiyanın VI Əlavəsi – "Havanın gəmilərdən çirkləndirilməsinin qarşısının alınmasına dair" Qaydaların təhlili" mövzularında ispan mütəxəssislərin iştirakı ilə, həmçinin İtaliya Respublikasında dəniz təhlükəsizliyinin həyata keçirilməsinə dair italyan mütəxəssislər tərəfindən seminarlar, həmçinin Fövqəladə Hallar Nazirliyi ilə birgə "Dəniz yolları ilə təhlükəli yüklərin daşınmasına dair Beynəlxalq Məcəllə" üzrə və "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında Konvensiya"nın (MARPOL) tətbiqinə dair təlim kursları keçirilib.

Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzinin Uzaq Məsafədən Tanınma və İzləmə Milli Mərkəzinin əməkdaşlarının təcrübi biliklərinin təkmilləşdirilməsi məqsədi ilə İspaniya Krallığında yerləşən Beynəlxalq Mayak Xidməti Assosasiyası tərəfindən akkreditasiya olunan "Centro Jovellanos" təlim-tədris mərkəzində gəmilərin hərəkətinin idarəetmə xidmətinin operatorları üçün olan müvafiq kurslarda iştirak təmin edilib.

Eyni zamanda, "Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində məsuliyyətin artırılmasında Dövlət Dəniz Administrasiyasına dəstək" adlı Tvinninq layihəsinin 2017-ci il 8 dekabr tarixində yekun iclası keçirilib. Belə ki, respublikamızda dəniz nəqliyyatı sahəsi üzrə milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində atılan mühüm addımlardan biri kimi dəyərləndirilən bu layihə çərçivəsində qarşıya qoyulan məqsədlərə tam nail olunub.

Qeyd edilən dövr ərzində Dövlət Dəniz Administrasiyasında vətəndaşların qəbulu işinin təşkili "Vətəndaşların müraciətləri haqqında" 30 sentyabr 2015-ci il tarixli 1308-IVQ nömrəli Qanuna və Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2006-cı il tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilən "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə"nin 8.13-cü bəndinə uyğun olaraq "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının rəhbərliyi və aparatın struktur bölmələrinin müdirləri tərəfindən vətəndaşların qəbul edilməsi qrafiki"ndə göstərilən günlər üzrə həyata keçirilib və zəruri hallarda vətəndaşlar qəbul günləri olmayan günlərdə də Administrasiyanın rəhbərliyi və Aparatın struktur bölmələrinin müdirləri tərəfindən qəbul ediliblər.

# ADDA-DA "AÇIQ MİKROFON" GÜNÜ





***Azərbaycan Dövlət Dəniz Akademiyasında "Açıq mikrofon" günü keçirilib. Son illər Azərbaycan Dövlət Dəniz Akademiyasında aparılan çoxsaylı islahatların, yeniliklərin hər biri tələbəmərkəzli, tələbəyönümlü olmaqla Akademiya gənclərinin hərtərəfli inkişafına yönəlib.***

Akademiyada fəaliyyətə başladığı ilk gündən tələbələrin problemləri ilə yaxından maraqlanıb onlara hər cür şərait yaradan, hər bir tələbəyə xüsusi qayğı göstərən rektor Ç.Əliyevin tələbələrlə olan ikinci belə görüşü idi.

Görüşün keçirilməsində məqsəd burda təhsil alan hər bir tələbə-gəncin istər təhsil, istərsə də sosial problemini öyrənmək, onların istək və arzularını, təkliflərini dinləmək idi.

"Açıq mikrofon" görüşündə Akademiyanın tədris və tərbiyə işləri, elmi və beynəlxalq əlaqələr, ümumi işlər üzrə prorektorları, rektorun köməkçisi, dekanlar, İnformasiya-resurs mərkəzinin müdiri və hər qrupdan ən fəal tələbə-gənclər, tələbə təşkilat rəhbərləri və üzvləri iştirak ediblər.

Tələbələr yüksək fəallıq göstərərək akademiya rəhbərinə tədris prosesi, təlim, təhsil və sosial məsələlər ətrafında suallarla müraciət ediblər. Həm yazılı, həm də şifahi formada ünvanlanan çoxsaylı sualları cavablandıran rektor tələbələrə öz məsləhət və tövsiyələrini verərək bir çox problemlərə elə yerindəcə aydınlıq gətirib.

Hər bir sualı böyük səbr və təmkinlə dinləyərək ətraflı cavablandıran akademiya rəhbərinə yaratdığı hər cür şərait və imkanlara görə bütün tələbələr öz minnətdarlıqlarını bildiriblər.

# BAKI-TBİLİSİ-QARS DƏMİR YOLU "BİR KƏMƏR-BİR YOL" STRATEGİYASININ SƏMƏRƏLİLİYİNİ ARTIRACAQ



***Bu yaxınlarda istifadəyə verilən və Avropa ilə Asiya arasında ən qısa dəmir yolu əlaqəsini təmin edən Bakı-Tbilisi-Qars dəmir yolu təkcə Azərbaycan, Gürcüstan və Türkiyə üçün deyil, ümumilikdə, Avrasiya regionunda yerləşən ölkələr üçün də iqtisadi baxımdan yeni imkanlar açır. Dünyanın ən böyük ixracatçı və ikinci ən böyük idxalçı ölkəsi olan Çinin də bu dəmir yoluna marağı yüksəkdir. "Bir kəmər-bir yol" strategiyasının əhatə etdiyi ölkələr ilə iqtisadi-ticari əlaqələrin genişlənməsinə dəstək məqsədilə yaradılan İpək Yolu Beynəlxalq Ticarət Palatasının baş katibi Li Cunxan AZƏRTAC-a müsahibəsində Bakı-Tbilisi-Qars dəmir yolunun Avrasiya ölkələri üçün əhəmiyyəti, Çinin bu xətdən istifadə imkanları barədə danışıb.***

**- Cənab baş katib, xahiş edirik, əvvəlcə təmsil etdiyiniz palata haqqında oxucularımıza məlumat verin.**

- İpək Yolu Beynəlxalq Ticarət Palatası tarixi İpək Yolu üzərində yerləşən ölkələrin milli ticarət assosiasiyalarının beynəlxalq birliyidir. Palatanın hazırda 76 ölkədən 91 ticarət palatası üzvü var. Yarandığı gündən bəri beynəlxalq səviyyədə "Bir kəmər-bir yol" layihəsi istiqamətində bir çox əməkdaşlıq əlaqələri qurub. Palatamızın ticarət, maliyyə, nəqliyyat, enerji və s. sahələr üzrə 8 komitəsi fəaliyyət göstərir. Bundan başqa, səkkiz praktiki əməkdaşlıq platformamız mövcuddur. Bunlara misal olaraq, İpək Yolu Beynəlxalq İnkişaf Fondu, İpək Yolu Beyin Mərkəzləri Assosiasiyası, Ticarət Sərgi Parkını göstərə bilərik. Qeyd edim ki, İpək Yolu Beynəlxalq Ticarət Palatası "Bir kəmər-bir yol" strategiyası üçün körpü rolu oynayır, bu istiqamətdə beynəlxalq əməkdaşlığa, iqtisadi və sosial inkişafa öz töhfələrini verir.

**- Siz ötən il Bakıda səfərdə olmusunuz. Azərbaycanı necə gördünüz, ölkəmizlə bağlı təəssüratlarınız necədir?**

- Əvvəlcə qeyd edim ki, Azərbaycan Cənubi Qafqaz regionunda çox önəmli bir ölkədir, Şimal ilə Cənubun, Şərq ilə Qərbin qovuşuğunda, Asiya və Avropa qitələri arasında körpü rolunu oynayır. Bu baxımdan Azərbaycan nəqliyyat və geosiyasi mövqe üstünlüyünə malikdir. Qədim İpək Yolu və müasir "Bir kəmər-bir yol" strategiyası üçün çox vacib rol oynayan Azərbaycanın nəqliyyat-logistika üstünlüyü açıq şəkildə özünü göstərir.

Ötən ilin aprelində palatamızın sədri cənab Li Ciancun ilə birlikdə BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunda iştirak etmək üçün Azərbaycana səfər etdik. Li Ciancun forumda "Bir kəmər-bir yol" layihəsinin inkişafı ilə bağlı nitq söylədi. Səfər çərçivəsində Azərbaycanda yeni təsis olunan "Sahibkarlar Günü" tədbirində iştirak etdik, Azərbaycanın iqtisadiyyat naziri ilə fikir mübadiləsi aparmaq imkanımız oldu. Bundan başqa, Azərbaycan Ticarət və Sənaye Palatasında, Azərbaycan Sahibkarlar Konfederasiyasının fəaliyyəti ilə tanış olduq. Bu iki təşkilat İpək Yolu Beynəlxalq Ticarət Palatasının üzvüdür.

Qeyd etməliyəm ki, Azərbaycan Cənubi Qafqaz regionunda çox sürətli inkişaf edən vacib bir ölkədir. Ətrafında olan və mənim səfər etdiyim ölkələr içərisində Azərbaycanda sabitlik hökm sürməkdədir. Azərbaycanın təbiəti çox gözəldir. Xüsusilə dənizkənarı sahil çox cazibədardır. Azərbaycan memarlıq baxımından da diqqəti cəlb edir, xüsusən "Alov qülləri" bizdə böyük təəssürat oyatdı. Azərbaycan məndə dərin təəssürat yaratdı.

**- Azərbaycan ilə Çin arasında iqtisadi əlaqələrin hazırki vəziyyəti və inkişaf perspektivləri barədə nə düşünürsünüz?**

- Ölkələrimizin xalqları arasında dostluq münasibətlərinin böyük tarixi var. Qədim İpək Yolu dövründə əsası qoyulan dostluq münasibətlərimiz bu günədək davam edir. Azərbaycan Çinin 2013-cü ildə irəli sürdüyü "Bir kəmər-bir yol" təşəbbüsünə Qafqaz regionunda dəstək verən ilk ölkə olub. Bu baxımdan "Bir kəmər-bir yol" strategiyasının həyata keçirilməsində Azərbaycan logistika mərkəzi, qovşaq və körpü rolunu oynayır.

Azərbaycanın əlverişli geosiyasi mövqeyi və böyük iqtisadi imkanları bizim palatamız və iş adamları üçün cəlbedicidir. Bir müddət əvvəl istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti sayəsində Çindən Avropaya yüklərin daşınma müddəti xeyli azalıb. Bu o deməkdir ki, Çindən daşınan yüklər iki həftə müddətində Azərbaycandan keçərək Avropaya çatır. Bakı-Tbilisi-Qars layihəsi həm də Azərbaycanın dəmir yolu nəqliyyatı sahəsində çox mühüm rol oynadığını nümayiş etdirdi. Türkiyə, Azərbaycan və Gürcüstanı əhatə edən bu dəmir yolu bir çox ölkələrin iqtisadiyyatının inkişafına müsbət təsirini göstərəcək.

Bu dəmir yolu "Bir kəmər-bir yol" strategiyasının səmərəliliyini artıracaq. Ona görə də Çin bu dəmir yolu xəttinə böyük əhəmiyyət verir. Belə ki, Çin Azərbaycan vasitəsilə Avropaya daha sürətli çıxış əldə etmiş olur. Arzu edirik ki, təkcə Çin malları deyil, həm də Avropa yükləri bu yolla Çinə daşınsın.

**- Son illər Azərbaycan təbii gözəlliyi, tarixi və müasir memarlığı, mətbəxi ilə turizm həvəskarlarının maraq göstərdiyi ölkəyə çevrilib. Siz Azərbaycanda səfərdə olmusunuz, iki ölkə arasında turizm sahəsində əməkdaşlığı necə görürsünüz?**

- Qədim tarixi olan Bakı çox gözəl şəhərdir. Paytaxtınızın gözəlliyi məni heyran etdi. Xatirə kimi bir çox şəkillər çəkdirmişəm.

Azərbaycanın zəngin turizm resursları ölkəyə daha çox əcnəbi turistin səfər etməyinə əsas verir. Düşünürəm ki, Azərbaycan ilə Çin turizm sahəsində əməkdaşlığı daha da genişləndirməlidirlər. İstərdik ki, çinli turistlərin Azərbaycana daha rahat səyahət edə bilmələri üçün hotellərdə, restoranlarda, turizm obyektlərində təlimatlar beynəlxalq dillər ilə yanaşı, həm də Çin dilində göstərilsin. Bu cür təcrübə bir çox Avropa ölkəsində, eləcə də Rusiyada var. Bildiyiniz kimi, son bir neçə ildir ki, xaricə gedən turistlərin sayına görə Çin birinci yerdədir. Ümid edirəm ki, yaxın zamanlarda gözəl Bakı çinli turistlərin əsas səyahət məkanı olacaq.

- Müsahibə üçün çox sağ olun.

*Şahin Cəfərov*

# GƏMİ SÜRÜCÜLƏRİ DOĞMA MƏKTƏBİ UNUTMURLAR













***Azərbaycan Dövlət Dəniz Akademiyasının sələfi sayılan Bakı Dəniz Yolları Məktəbini 1977-ci ildə "Gəmi sürücülüyü" ixtisası üzrə bitirmiş məzunlar onlar üçün həmişə doğma olan məktəblərini ziyarət ediblər.***

Məzunlar Akademiyanın müasir tədris bazası, laboratoriyaları, trenajorları ilə yaxından tanış olublar.

Məzunların arasında hazırda Azərbaycanın dəniz nəqliyyatı sektorunda, müxtəlif şirkətlərdə məsul vəzifələrdə çalışanlar da, sorağı dünya sularından gələnlər də az deyil. Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası rəisinin müavini Şahlar Məmmədov, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti sədrinin müşaviri İlham Məmmədov, Gəmiçiliyin Dəniz üzgüçülüyünün təhlükəsizliyi departamentinin rəisi Aydın Mahmudov və başqaları Dəniz Akademiyasında tələbələr üçün yaradılmış şəraitdən məmnun qalıblar.

Sonra qonaqlar Dəniz Akademiyasının rektoru, uzun müddət kapitan vəzifəsində çalışmış Çingiz Əliyevlə görüşüblər. Səmimi şəraitdə keçən görüşdə kapitanların bütün sualları cavablandırılıb, gənclik xatirələri dilə gətirilib.

Rektor qeyd edib ki, bu gün Akademiyanın fəaliyyəti "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyevin xüsusi diqqətindədir və istər tələbələrin, istərsə də müəllimlərin problemi vaxtında həll olunur. Təhsil ocağı üçün lazımi avadanlıqlar alınır, yeniləşmə prosesi Akademiya həyatının bütün sahələrini əhatə edir.

Sonda fəxri qonaqlar kitabına ürək sözlərini yazan məzunlar səmimi qəbula görə təşəkkürlərini bildirib, xatirə şəkli çəkdiriblər.

# QAZAXISTANDA TRANSXƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT MARŞRUTUNUN BÖYÜK PERSPEKTİVLƏRİNİ GÖRÜRLƏR

***Qazaxıstan Milli Sahibkarlar Palatasında ("Atamekan" MSP) və Qazaxıstan Nəqliyyatçılar İttifaqında belə hesab edirlər ki, xüsusən Çin mallarının nəql olunmasının və Qazaxıstan mallarının Azərbaycan, Gürcüstan vasitəsilə Türkiyəyə və daha sonra Avropaya çatdırılmasına şərait yaradan Bakı-Tbilisi-Qars beynəlxalq dəmir yolu dəhlizinin açılışdan sonra Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun imkanlarından istifadə olunması üçün böyük perspektivlər yaranıb.***




KAZİNFORM xəbər verir ki, bu barədə Qazaxıstanın "Atamekan" Milli Sahibkarlar Palatasının rəyasət heyətinin üzvü Murat Abenov bildirib. O deyib: "Bizim sahibkarlar üçün logistika marşrutlarının şaxələndirilməsi prosesi gedir və onların istehsal etdikləri malların ixracı məsələlərində böyük imkanlar yaranır. Qazaxıstan biznesi malların daşınmasının maya dəyərinin və yolda olma müddətinin azaldılması hesabına özünün rəqabətqabiliyyətliliyini artırır, çünki bu halda malların dəniz yolu ilə - Qara dənizin Gürcüstan limanlarından Türkiyə limanlarına daşınması istisna edilir. Layihədə Xəzər dənizinin Aktau və Kurık limanlarından istifadə edilməsi də Qazaxıstan üçün müsbət məqamdır".

# 20 YANVAR FACİƏSİNİN 28-Cİ İLDÖNÜMÜNÜN KEÇİRİLMƏSİ İLƏ BAĞLI TƏDBİRLƏR PLANI TƏSDİQLƏNİB

***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi səkkizinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib.***



Sənədə əsasən respublikanın şəhər və rayonlarında, idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı konfrans, toplantı və mühazirələrin təşkili, 20 Yanvar gününün Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizə rəmzi kimi qeyd olunması ilə bağlı tədbirlərin keçirilməsi, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların, bədii və sənədli filmlərin nümayiş etdirilməsi nəzərdə tutulur.

Həmçinin dünya ictimaiyyətinin diqqətini bu faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar hadisələri barədə müxtəlif dillərdə materialların hazırlanması və yayılmasının təmin olunması barədə tapşırıqlar verilib.

Tədbirlər planına əsasən, respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs keçiriləcək, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardımlar göstəriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, Azərbaycanda fəaliyyət göstərən əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə həsr olunan dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində 20 Yanvar faciəsinin iyirmi səkkizinci ildönümü ilə əlaqədar hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər planlaşdırılır.



## DƏNİZDƏ İNSAN HƏYATININ MÜHAFİZƏSİ ÜZRƏ TƏLİMLƏRDƏ 36 MİN İŞÇİ İŞTİRAK EDİB

*İndiyədək SOCAR-ın təşkil etdiyi dənizdə insan həyatının mühafizəsi üzrə (BOSIET) təlimlərdə 36 min işçi iştirak edib.*

Bu barədə SOCAR məlumat yayıb.

"Əməyin mühafizəsi daimi prioritetdir. 2011-ci ildən etibarən SOCAR-ın təşkil etdiyi dənizdə insan həyatının mühafizəsi üzrə təlimlərində 36 mindən çox həmkarımız iştirak edib", - deyə şirkətin məlumatında deyilir.




## "DƏNİZ, YOXSA GÖL? XƏZƏRİN STATUSUNUN QEYRİ-MÜƏYYƏNLİK DÖVRÜ BAŞA ÇATMAQ ÜZRƏDİR"

*Braziliyanın Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin jurnalında Xəzər dənizinin hüquqi statusundan bəhs edən məqalə dərc olunub.*

"Dəniz, yoxsa göl? Xəzərin statusunun qeyri-müəyyənlik dövrü başa çatmaq üzrədir" sərlövhəli analitik məqalədə müəllif Rodriqo Montero de Karvalyo Xəzərin hüquqi statusu ilə bağlı son danışıqlar haqqında yazır. O, dekabrın əvvəlində Moskvada baş tutan danışıqlardan sonra Rusiyanın xarici işlər naziri Sergey Lavrovun nikbin bəyanatını qeyd edir və yekun razılaşmanın 2018-ci ilin ilk yarısında imzalanacağının gözlənilən olduğunu bildirir.

Xəzərin karbohidrogen resurslarından söz açılan məqalədə hələ XIX əsrin ikinci yarısından başlayaraq Bakıda neft sənayesinin inkişaf etdiyi oxucuların diqqətinə çatdırılır. Sovet İttifaqının süqutundan sonra Xəzərdəki neft yataqlarını Qərb şirkətlərinin üzünə açan ilk ölkənin məhz Azərbaycan olduğunu qeyd edən müəllif "Əsrin müqaviləsi" haqqında geniş məlumat verir.

*Aygün Əliyeva*



## ÖTƏN İL ARALIQ DƏNİZİ VASİTƏSİ İLƏ AVROPAYA 171 MİNDƏN ÇOX MÜHACİR GƏLİB

*2017-ci ildə Aralıq dənizi vasitəsi ilə Avropaya gələn mühacir və qaçqınların sayı 171 min nəfərdən çox olub. Həmçinin köç zamanı 3 mindən çox insan həyatını itirib.*

TASS informasiya agentliyi xəbər verir ki, bunu Beynəlxalq Miqrasiya Təşkilatının rəsmi nümayəndəsi Coel Millman yanvarın 5-də Cenevrədə keçirilən brifinqdə bildirib. Onun sözlərinə görə, İtaliya təxminən 119 min, Yunanıstan 29 min, İspaniya 21 min və Kipr min nəfər mühaciri qəbul edib. 2016-cı ildə isə Avropaya gələn mühacirlərin sayı 363 min nəfəri ötmüşdü.

Ötən il yanvarın 1-dən dekabrın 20-nə qədər Aralıq dənizində 3116 nəfər, 2016-cı il ərzində 5143 nəfər həyatını itirib. 2017-ci ildə Afrikadan İtaliyaya gedən marşrut digər miqrasiya yollarına nisbətən daha təhlükəli olaraq qalıb.

Ümumilikdə isə ötən 12 ay ərzində 5376 mühacir və qaçqın dənizdə boğularaq həlak olub. Aralıq dənizindən əlavə, Şimali Afrikada 467, Afrikanın Saxaradan cənubdakı rayonlarında 387, Meksikadan ABŞ-a gedən marşrutda 369, Cənub-Şərqi Asiyada 298 və Yaxın Şərqdə 214 ölüm faktı qeydə alınıb.

2016-cı ildə 7932 mühacirin həyatını itirdiyini xatırladan Coel Millman 2017-ci ildə ölüm hallarının azalmasını "müsbət inkişaf" adlandırıb.

## "AZƏRİ-ÇIRAQ-GÜNƏŞLİ"DƏN DAHA 500 MİLYON TONADƏK NEFT HASİL EDİLƏCƏK



*2050-ci ilədək Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) neft-qaz yataqları blokundan daha 500 milyon tona qədər neft hasil olunacaq.*

Bu barədə SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə deyib.

SOCAR-ın birinci vitse-prezidenti bildirib ki, bu vaxta qədər AÇG-yə təxminən 43 milyard dollar sərmayə qoyulub və bundan sonra da bir o qədər sərmayə qoyulacaq.

Qeyd edək ki, 2018-ci ildə AÇG neft-qaz yataqları blokundan xam neft hasilatının həcminin 204,4 milyon barrel, yəni 28 milyon ton olacağı proqnozlaşdırılır.

AÇG-də iştirak payları belədir: BP (operator – 35,8 faiz), SOCAR (11,6 faiz), "Chevron" (11,3 faiz), "Inpex" (11 faiz), "Statoil" (8,6 faiz), "ExxonMobil" (8 faiz), "TPAO" (6,8 faiz), "Itochu" (4,3 faiz), "ONGC Videsh Ltd." (OVL) (2,7 faiz).

Xatırladaq ki, ötən il sentyabrın 14-də Azərbaycan hökuməti və SOCAR, beynəlxalq tərəfdaşlar şirkətlərlə birlikdə AÇG-nin birgə işlənməsi və Hasilatın Pay Bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş Sazişi imzalayıblar. Saziş Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən oktyabrın 31-də ratifikasiya olunub.

Yeni saziş çərçivəsində ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar həcmində bonus ödəniləcək, SOCAR-ın "AzAÇG" şirkəti podratçı kimi kontraktın icrasında iştirak edəcək, Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi isə 75 faiz olacaq. Həmçinin SOCAR-ın payı 11,6 faizdən 25 faizə qaldırılıb.

AÇG üzrə Hasilatın Pay Bölgüsü haqqında Sazişin podratçı tərəfləri adından "BP Exploration (Caspian Sea) Limited" şirkəti operatordur.

## DÜNYANIN NEFT EHTİYATI İLƏ ZƏNGİN ÖLKƏLƏRİ

*Azərbaycan neft ehtiyatı ilə zəngin dünyanın 20-ci ölkəsidir.*

Bu barədə dünyanın neft ehtiyatına görə ən zəngin ölkələrinin yer aldığı "Global Firepower"in 2017-ci ilə dair hesabatında deyilir. Sıralamada Azərbaycan 7 milyard barrel neft ehtiyatı ilə 20-ci pillədə qərarlaşıb.

Siyahıya 300 milyard barrel neft ehtiyatı ilə Venesuela başçılıq edir. Üçlükdə 269 milyard barrel ehtiyatla Səudiyyə Ərəbistanı və 171 milyard barrellə Kanada qərarlaşıb.

İlk onluqda isə müvafiq olaraq 157,8 milyard barrel – İran, 143 milyard barrel – İraq, 104 milyard barrel – Küveyt, 98 milyard barrel - Birləşmiş Ərəb Əmirlikləri, 80 milyard barrel – Rusiya, 48,3 milyard barrel – Liviya, 37 milyard barrel – Nigeriya var.



ABŞ 36,5 milyard barrel neft ehtiyatı ilə 11-ci, Qazaxıstan 30 milyard barrellə 12-ci, Çin isə 25 milyard barrel ehtiyatla 13-cü sırada yer alıb.

Qeyd edək ki, Azərbaycanda bu günə dəqiqləşdirilmiş çıxarıla bilən neft-kondensat ehtiyatı 1,5 milyard ton, qaz ehtiyatı isə 2 trilyon 550 milyard kubmetr həcmindədir. Proqnozlaşdırılan neft ehtiyatı 2 milyard ton, qaz ehtiyatı isə 3 trilyon 450 milyard kubmetrdir. Başqa sözlə, Azərbaycanda bu günə dəqiqləşdirilmiş çıxarıla bilən karbohidrogen ehtiyatı neft ekvivalentində 4 milyard 50 milyon ton, proqnoz karbohidrogen ehtiyatı isə neft ekvivalentində 5 milyard 450 milyon tondur. Beləliklə, bizim ümumi karbohidrogen ehtiyatlarımız şərti yanacaqla 9,5 milyard ton həcmində qiymətləndirilir.

## "SAUDİ ARAMCO" SƏHMDAR CƏMİYYƏTİNƏ ÇEVRİLİR

*Səudiyyə Ərəbistanının milli neft şirkəti "Saudi Aramco" səhmdar cəmiyyətinə çevrilir.*

Bu barədə Səudiyyə Ərəbistanı Nazirlər Kabineti qərar qəbul edib. Bildirilir ki, qərar 2018-ci ilin əvvəlindən qüvvəyə minir. Nazirlər Kabineti qərar çərçivəsində birbaşa və ya bilavasitə "Aramco"ya məxsus şirkətlərin bu prosesə uyğunlaşması üçün 5 il vaxt verib. Bu müddət zəruri hallarda uzadıla bilər.




"Saudi Aramco" 10 ildə layihələrinə 414 milyard dollar xərcləyəcək. Gündəlik 10 milyon barreldən çox xam neft istehsal edən "Aramco" dünya üzrə neft hasilatının 12 faizini həyata keçirir. Eyni zamanda, şirkət Səudiyyə Ərəbistanının büdcə gəlirlərinin üçdə ikisini təmin edib.

"Saudi Aramco"nun 5 faizlik səhmlərinin bu il satışa çıxarılması nəzərdə tutulur. Bu satışdan sonra şirkətin dəyərinin 2 trilyon dollara çatacağı proqnozlaşdırılır. "Saudi Aramco" Böyük Britaniyanın maliyyələşdirdiyi 2 milyard dollarlıq fond üçün ABŞ-ın "Citi" investisiya bankı ilə razılaşıb və bu çərçivədə "Citi bank" həmin fondu idarə edəcək. "Aramco" daha əvvəl "JPMorgan Chase & Co", "Morgan Stanley" və "HSBC" ilə məsləhətləşmələr üçün razılaşıb.

Qeyd edək ki, Səudiyyə Ərəbistanının Zəhra şəhərində yerləşən şirkət ilk neft quyusunu 1935-ci ildə qazıb. Şirkətin 261 milyard barrel nefti var və bu rəqəm ABŞ-ın ən böyük neft şirkəti "Exxon Mobile"in həcmlərindən 10 dəfə çoxdur. Dünyada hasil edilən hər 8 barrel neftdən birini "Saudi Aramco" çıxarır. Şirkətdə 51 min Səudiyyə Ərəbistanı vətəndaşı, 10 min 254 nəfər isə əcnəbi vətəndaş işləyir.



## SU HÖVZƏLƏRİNƏ 437 MİLYON BALIQ KÖRPƏSİ BURAXILIB

*2017-ci ildə 437 milyon müxtəlif növ balıq körpələri respublikanın təbii su hövzələrinə buraxılıb. Bunların 190 mindən çoxunu qızılbalıq, 8,3 milyonunu nərəkimilər, 428 milyonunu isə çəkikimilər təşkil edib.*

Bu barədə AZƏRTAC-a Ekologiya və Təbii Sərvətlər Nazirliyinin su hövzələrində bioresursların artırılması sektorunun müdiri Fəridə Ələkbərova məxsusi müsahibəsində məlumat verib.

F.Ələkbərova bildirib ki, qızılbalıqların yetişdirilərək su hövzələrinə buraxılması plandan artıq olub. Buna görə də gələn il həmin balıq növləri üçün nəzərdə tutulmuş planın artırılması gözlənilir.

Sektor müdiri bütün balıq növləri üzrə müəyyən edilmiş proqnozlara 92 faiz əməl olunduğunu qeyd edib. Ümumi balıq buraxılışında ötən illə müqayisədə təxminən 1,07 faiz artım müşahidə olunub.



## FİLİPPİN DƏNİZİNDƏ QƏZAYA UĞRAMIŞ TƏYYARƏNİN PARÇALARI TAPILIB

*ABŞ hərbi-dəniz qüvvələri ötən ilin noyabrında Filippin dənizində qəzaya uğramış nəqliyyat təyyarəsinin parçalarını aşkar edib.*

ABŞ-ın yeddinci donanmasının yaydığı məlumata əsasən, sualtı mütəxəssislər qrupu yanvarın 5-də "C-2A Greyhound" nəqliyyat təyyarəsinin radio mayakını aşkar edib. Təyyarənin parçaları 5640 metr dərinlikdə yerləşir.

Xatırladaq ki, xilasedici qrup ötən ilin dekabrından axtarış işlərinə başlayıb.

Təyyarə noyabrın 22-də Yaponiyanın qərbində yerləşən İvakuni hərbi bazasından ABŞ hərbi-dəniz qüvvələrinə məxsus "Ronald Reagan" aviadaşıyıcısına uçarkən qəzaya uğramışdı.



## İSPANİYANIN SAHİL MÜHAFİZƏ XİDMƏTİ QAYIQLA BU ÖLKƏYƏ KEÇMƏK İSTƏYƏN MİQRANTLARI XİLAS EDİB

*İspaniyanın sahil mühafizə xidməti qayıqla bu ölkəyə keçmək istəyərkən dənizdə təhlükə ilə üzləşmiş 6 mərakeşlini xilas edib.*

İçində qanunsuz miqrantların olduğu qayıq İspaniyanın Seuta anklavının sahillərindən 10 mil uzaqlıqda aşkarlanıb. Qayığı saxlayan sahil mühafizə xidmətinin əməkdaşları oradakı 6 mərakeşlini İspaniya katerinin göyərtəsinə alıblar.

Miqrantlara ilkin tibbi yardım və qida verilib. Onların sağlamlıqlarının təhlükədə olmadığı bildirilir.

Qeyd edək ki, 2017-ci il ərzində Mərakeşdən İspaniyaya keçməyə cəhd göstərən 600 miqrant saxlanılıb.

## LİVİYADAN GƏLƏN MİQRANTLARIN SAYI XEYLİ AZALIB



Thousands of migrants trying to cross to Europe by sea use the central Mediterranean route between Libya and Italy.

*İtaliyanın Daxili İşlər Nazirliyindən verilən məlumata əsasən, bu ölkəyə Liviya sahillərindən gələn miqrantların sayı 2016-cı il ilə müqayisədə 2017-ci ildə 33 faiz azalıb.*

ANSA agentliyi xəbər verir ki, İtaliyanın Daxili İşlər Nazirliyinin məlumatına əsasən, gələnlərin sayının azalması Liviya hakimiyyətinin ilin ikinci yarısında qeyri-qanuni immiqrasiya ilə mübarizədə göstərdiyi köməyin nəticəsidir.

İtaliyaya gələnlərin sayı 2016-cı ildə 181 min nəfər olubsa, 2017-ci ildə bu göstərici 119 min nəfər təşkil edib.

## HADİSƏ ZAMANI "MERCRAFT 3" GƏMİSİNDƏ 251 SƏRNİŞİN OLUB



*Filippinin Luson adası yaxınlığında gəminin batması nəticəsində dörd sərnişin həlak olub.*

"CNN Philippines" saytı xəbər verir ki, keçən il dekabrın 21-də Keson əyalətindən Polilo adasına üzən gəmidən 240 sərnişin xilas edilib.

Sahil Mühafizəsi Xidmətinin məlumatına görə, hadisə zamanı "Mercraft 3" gəmisində 251 sərnişin olub.

Hadisə şahidləri yolun yarısında dalğaların hündürlüyünün artdığını və suyun gəminin burun hissəsinə dolmağa başladığını bildiriblər. Sərnişinlərə xilasedici jiletlər paylansa da, bəziləri ondan istifadə edə bilməyib. Nəticədə yeddi sərnişin itkin düşmüş hesab olunur.

Axtarış-xilasetmə işləri davam etdirilib.



## 2030-CU İLDƏ DÜNYADA BUZ DÖVRÜ BAŞLAYACAQ

***2030-cu ildə dünyada buz dövrü başlayacaq.***

"ntv.com.tr" saytı xəbər verir ki, alimlərin araşdırmasına görə, digər tərəfdən baş verəcək iqlim dəyişikliyi qlobal istiləşmənin təsirlərini azaldacaq.

İngiltərənin Northumbiya Universitetində professor Valentina Zharkova gələcəkdə qlobal iqlim dəyişikliklərinin riyazi formada təxmin edilməsinə müvəffəq olan bir model yaradıb. Bu model sayəsində baş verəcək iqlim dəyişiklikləri əvvəlcədən öyrəniləcək.

Tədqiqata görə, 2020-2030-cu illər arasında Günəşin maqnetik dairələri bir-birini ləğv edəcək. V.Zharkova bu vəziyyətin 2021-ci ildən etibarən Yer üzündə temperaturun düşməsinə və 2030-cu ildə dünyada buz dövrünün başlanmasına səbəb ola biləcəyini açıqlayıb.

## DÜNYANIN ƏN BÖYÜK AMFİBİYA TƏYYARƏSİ İLK UÇUŞUNU YERİNƏ YETİRİB



***Çin mütəxəssislərinin hazırladığı dünyanın ən böyük amfibiya təyyarəsi "AG600" ilk uçuşunu uğurla yerinə yetirib.***

Çin Aviasiya Sənayesi Korporasiyasının (AVİC) istehsal etdiyi 37 metr uzunluğundakı "Kunlong" adlı təyyarə Cuxay şəhərindəki aeroportdan havaya qalxıb və 64 dəqiqə ərzində uçuşunu başa çatdırıb.

Çin Kommunist Partiyasının Mərkəzi Komitəsi və ÇXR Dövlət Şurası uğurlu uçuş münasibətilə təyyarəni hazırlayan mütəxəssisləri təbrik edib.

İstehsalçı şirkətin məlumatına görə, maksimal uçuş kütləsi 53,5 ton olan "AG600" təyyarəsi bir dəfəyə 4500 kilometr məsafə qət edə bilər. Saatda 500 kilometr sürətlə uçan amfibiya təyyarəsi 12 saat havada qalır. Təxminən 20 saniyə ərzində 12 ton su toplayan təyyarə həm adi aerodromlara, həm də su səthinə enib qalxmağa qadirdir.

Yanğına qarşı mübarizədə, su hövzələrində monitorinq, mühafizə və xilasetmə işlərində istifadə olunacaq "AG600" cari ilin aprel ayında ilk sınaq uçuşunu da uğurla yerinə yetirmişdi.

İstehsalçı şirkət bu tip 17 təyyarənin satışına dair sifariş qəbul edib.

***Şahin Cəfərov***



## QƏZA ZAMANI QAYIQDA 45 SƏRNİŞİN OLUB

***İndoneziyanın Borneo adası sahillərində qayığın aşması nəticəsində azı 8 nəfər həlak olub, onlarla insan itkin düşüb.***

"Ria Novosti" xəbər verir ki, qəza zamanı qayıqda 45 sərnişin olub.

Yerli xilasetmə xidmətinin nümayəndəsinin məlumatına görə, "Anugrah Express" qayığı tirlə toqquşub və batıb. Sərnişinlərdən altısının uşaq olduğu bildirilir.

## GƏMİ-RESTORANLARLA BAĞLI MÜBAHİSƏYƏ SON QOYULUB

***İtaliyanın Milan şəhərinin ətrafındakı "Navilya" su kanalından restoran tipli səyahət gəmiləri çıxarılıb.***



ANSA agentliyi xəbər verir ki, Milanın ictimai təhlükəsizlik məsələləri üzrə müşaviri Karmela Rozza beş gəmi-restoranın ləğv edilməsinin 25 illik mübahisəyə son qoyacağını bildirib.

Milan Sahibkarlar Birliyinin məlumatına görə, bu qərar "Navilya" kanalının "ölümü" deməkdir.

***Asiman Əsədov***

## İON DƏNİZİNİN ALTINDA BÖLÜNMƏ XƏTLƏRİ AŞKARLANIB

***İtaliyalı tədqiqatçılar Adriatik dənizi və Aralıq dənizi arasında yerləşən maksimal dərinliyi 5121 metr təşkil edən İon dənizi altında dərin çatlar sistemi aşkar ediblər.***

ANSA agentliyi xəbər verir ki, bu mühüm tədqiqat işi Siciliyanın Kalabriyadan yavaş, lakin tədricən aralandığını və bu ərazidə güclü zəlzələnin baş vermə təhlükəsinin olmasını izah etməyə imkan verir.

"Bu ərazidə keçirilən çoxsaylı okeanoqrafik kampaniyalar dəniz kənarı yaxınlığında çat xətlərinin geniş sistemini aşkar etdi və indi həmin çatları tədqiq etmək olar", – deyə tədqiqatçı Alina Poloniya bildirib.

***Asiman Əsədov***






## PAPUA-YENİ QVİNEYA SAHİLLƏRİNDƏ 100 İL BUNDAN ƏVVƏL İTMİŞ SUALTI QAYIQ TAPILIB

***Axtarış qrupu 1914-cü ildə Papua-Yeni Qvineya sahillərində itmiş Avstraliya hərbi-dəniz qüvvələrinə məxsus "HMAS AE1" sualtı qayığının yerini aşkar edib.***



Avstraliyanın "7 News Sydney" portalı xəbər verir ki, bu barədə ölkənin Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumatda deyilir ki, sualtı qayığın axtarışı üzrə yeni ekspedisiya ötən həftə işə başlayıb. "Furgro Equator" axtarış gəmisi sualtı qayığı 300 metr dərinlikdə aşkar edib.

"HMAS AE1" sualtı qayığı 1914-cü il sentyabrın 14-də hazırda Papua-Yeni Qvineyanın tərkibinə daxil olan Yeni Britaniya adasındakı Rabaul limanı yaxınlığında tapılıb. Müdafiə Nazirliyinin məlumatında qeyd edilir ki, bu, Avstraliya Kral hərbi-dəniz qüvvələrinin və I Dünya müharibəsi zamanı müttəfiqlərin ilk itirdiyi sualtı qayıq olub. Qayığın 35 nəfər heyət üzvünün taleyi Avstraliya hərb tarixində ən müəmmalı məqamlardan biri kimi qeyd edilir.

***Vüqar Ağayev***

## MAVİ TUNA BALIĞI 600 MİN AVRODAN BAHA SATILIB

***Yanvarın 5-də Tokionun Tsukizi balıq bazarındakı hərraclarda 212 kiloqramlıq mavi tuna balığı 74,20 milyon yenə (təqribən 605 min avro) satılıb.***

Həmin balıq bazarda təşkil olunan ilk hərraclar zamanı əsas lot olub. Balığın Aomori prefekturasının Oma limanında tutulduğu bildirilir.



Balıq dünyanın bir çox ölkələrində restoranlar şəbəkəsinə malik olan "Sushizanmai" şirkətinin sahibi Kiyoşi Kimura tərəfindən alınıb.

Bununla yanaşı, həmin lotun rekord olmadığı qeyd edilir. Belə ki, bu bazarda 222 kiloqram ağırlığında mavi tuna balığı 2013-cü ildə 155,4 milyon yenə satılmışdı. Həmin vaxt da balığı "Sushizanmai" şirkətinin sahibi almışdı.

## YANVARDA HƏR SANİYƏDƏ 4-DƏN ÇOX UŞAQ DÜNYAYA GƏLƏCƏK



***ABŞ-ın Siyahıyaalma Bürosunun mütəxəssisləri 2018-ci ilin yanvarın 1-də dünya əhalisinin sayının 7 milyard 444 milyon nəfərə çatdığı ilə bağlı bəyanat yayıblar.***

Mütəxəssislər əhalinin sayının 2017-ci ilin eyni dövrü ilə müqayisədə 78,5 milyon nəfər çox olacağını bildiriblər. Qeyd edilib ki, əhalinin artımı 1,07 faiz təşkil edəcək. Proqnozlara əsasən, 2018-ci ilin ilk ayında hər saniyədə 4-dən çox uşaq dünyaya gələcək.

Büronun hesablamalarına görə, 2050-ci ildə dünya əhalisinin sayı 9 milyard nəfərə çatacaq.

## ƏN VARLI 500 ŞƏXSİN SƏRVƏTİ BİR İLDƏ 1 TRİLYON DOLLAR ARTIB

***Dünyanın ən varlı 500 insanı 2017-ci ildə sərvətlərinə 1 trilyon dollar əlavə edib.***

Anadolu informasiya agentliyi xəbər verir ki, "Bloomberg"in milyarderlər indeksində yer alan məlumata əsasən, dünyanın ən varlı 500 şəxsinin 2016-cı il dekabrın 27-də 4,4 trilyon dollar olan sərvətləri 2017-ci il dekabrın 26-da 23 faiz artaraq 5,3 trilyon dollara çatıb.

Keçən il hər gün sərvətlərinə 2,7 milyard dollar əlavə edən dünyanın ən varlı insanları 2017-ci ildə bundan dörd dəfə çox pul qazanıblar.

ABŞ-ın ticarət nəhəngi "Amazon" kompaniyasının banisi Ceff Bezos bu göstəriciyə görə ən yüksək nəticə göstərib və varidatını 34,2 milyard dollar artıraraq 99,6 milyard dollara çatdırıb. O, 2013-cü ildən bəri dünyanın ən varlı insanı olan 91,3 milyard dollarlıq sərvətə malik "Microsoft" kompaniyasının yaradıcısı Bill Qeytsin titulunu əlindən alıb.



Siyahıya daxil olan varlılar arasında 38 çinli milyarder sərvətlərinə əlavə etdikləri 177 milyard dollarla varidatlarını 65 faiz artırıb. Reytinqdə 159 varlı ilə təmsil olunan ABŞ milyarderləri isə 315 milyard dollar artımla sərvətlərini 18 faiz çoxalda biliblər.

2017-ci ildə 57 texnologiya milyarderi 262 milyard dollara çatan sərvətlərini 35 faiz artırmağa müvəffəq olub. "Facebook" sosial şəbəkəsinin qurucusu Mark Zuckerbergin 22,6 milyard dollarlıq varidatında 45 faizlik gəlir qeydə alınıb.

İndeksdə yer alan 440 milyarderin sərvətləri 1,05 trilyon dollar artdığı halda, 58 milyarder 46 milyard dollar ziyana düşüb. Fransanın telekommunikasiya nəhəngi Patrick Drahi 4,1 milyard dollarlıq geriləmə ilə varidatı ən çox azalan şəxs olub.

Ötən il reytinqdə yer alan 60 milyarder ziyana uğradıqları və ya rəqiblərinin onları üstələməsi səbəbindən siyahıdan kənarda qalıb.

## YARIZARAFAT, YARIGERÇƏK

**Deyirlər Yeni ildə ən mahir yalançıların da yalanı keçməyəcək.**

**Yeni ildən gözləntilərim çoxdur. Ümid edirəm ki, söz adamı olduğum üçün, mənə ancaq söz verməyəcəklər.**

**Zəmanəyə bax ki, çox adam daha çox yalanlarına güvənir.**

**O əvvəllər idi, bəzilərinin uzağı iki üzü ola bilərdi...**

**Nə qədər ki, hər kəsin halal haqqını birbaşa Allah özü vermir, çox adamın haqqı yeyiləcək.**

**Ən azı, bu dünyada yalnız naqislik edənlərin o dünyada güzəranını görmək üçün Cəhənnəmə getməyə dəyər.**

**Görəsən, vəzifəlinin iti öləndə də yas saxlayanlar yalnız heyvansevərlərdir?**

**Qanım birinci qrup olduğu üçün çox adam qanımı içməyə hazırdır?**

**Heç kim özünü "piyada" saymırsa, piyada yollara nə ehtiyac?**

**Heyvanlar arasında ədalətsizliyə daha az yol verilir: atın at yeri var, uzunqulağın da uzunqulaq.**

**Haqqın qapısını tanımayan çox qapılar döyəcək.**

**Bütün insanların həyat tarixçələri bir-birinə bənzəyir: özləri istəmədən doğulurlar, istəmədikləri kimi yaşayırlar və istəmədikləri vaxtda dünyalarını dəyişirlər.**

**Biz anlamadıqlarımızı sevməyə bilərik. Amma sevdiklərimizi anlamaq məcburiyyətindəyik.**

**Ölüm mənə sevgi nəğməsi oxuyur.**

**Biz öz bədənimizə də zülm edirik, sonra deyirik ki, bizdən mərhəmətli adam yoxdur.**

**Hər bir sualın cavabını olduğu yerdə axtarmaq lazımdır.**

**Yarımçıq düşüncələrlə bütöv ömür yaşamaq mümkün deyil.**

**Hələ heç kəs qaçmaqla ölümdən yaxa qurtara bilməyib.**

**Dənizi təkcə gözəlliyinə görə sevənin dənizdə nə işi? Gözəlliyini elə sahildən də seyr etmək olar.**

**İşığa doğru olmayan yola çıxma.**

**Xətti pis olanın da Alın yazısı gözəl ola bilər.**

**Özünə başqalarının gözüylə baxa bilməyənin səhvlərinin sayı-hesabı olmaz.**

**Yaltaqlarla nə islahat?**

**Bu gün gördüyünüz kimidir. Sabah da kimin kimin yanında olacağı bəlli: yaltaq yaltaqlığı sevənin, yaramaz yaramazın yanında olacaq.**

**Həyatda ən böyük səhvi istedadsıza yol verəndə edirik.**

**Bizə qənim kəsilənlərin əksəriyyəti istedadsızlardır.**

**Bütün pisliklərin mayasında pula hərislik dayanır.**

**Bilmədiklərim məni, bildiklərim isə başqalarını narahat edir.**

**Hər kəs özünü haqlı sayandan başlayır bütün haqsızlıqlar.**

**Mən ölümə minnətdaram:fərq qoymur.**

**Nankorlar yaltaq olmaya bilər, yaltaqların hamısı nankor olur.**

**Nadürüstlər üçün əsl qiyamət Haqq qalib gələndə qopacaq.**

**Əvvəl elə bilirdim ki, bütün pisliklər cəhalətdən doğur.**

**Xəyal və düşüncələrdən azad nə var?**

**Baş var, şöhrətin havası dəyən kimi, dumanlamağa başlayır.**

**Mənim şeirlərim mənim dualarımdır.**

**Yerdə o qədər haqqsızlıq gördüm ki, indi ən adi şeyləri də göydə axtarıram.**

**Bircə dəfə tamahın sənə güc gəldimi? Bircə dəfə yalan danışdınmı? Onda sənə inanmamağımdan niyə inciyirsən?**

**Bizə yuxarıdan aşağı rahat baxmaları üçün layiq olmayanları göyə qaldırırıq?**

**İlk baxışdan hər kəs insana oxşayır.**

**Bəzilərinə elə gəlir ki, ağlaya bilmədikləri üçün həyat onları həmişə güldürməlidir.**

**Səndən niyə küsüm? Sən rastıma çıxan və yalnız öz xeyrini güdən ilk adam deyilsən ki... Ətrafım sənin kimilərlə doludur.**

**Yaxşı ki, fərli adım yoxdur. Yoxsa onu da qamarlayardılar.**

**Ağlın varsa, dost axtarma. Ağıldan yaxşı dost?!**

**Heç nə sənin gözümdən düşdüyün sürətlə düşə bilməzdi.**

**Yanıldığını qəbul etmədiyin vaxtdan yanıla-yanıla gedirsən.**

**Nədənsə qorxmaq təhlükə hissini azaltmırsa, qorxmayın.**

**Vaxtın ömrünü uzatmaq istəyirsinizsə, yaxşı nəsə gözləyin. Onda vaxt da gec keçir.**

**Qocalar doğrudanmı cavanların bir salamını eşitməyəcək qədər geridə qalıblar?**

***Rasif TAHİROV***

| | YANVAR | FEVRAL | MART | APREL | MAY | İYUN | |
|---|---|---|---|---|---|---|---|
| Be | 1 8 15 22 29 | 5 12 19 26 | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | 4 11 18 25 | Be |
| Ça | 2 9 16 23 30 | 6 13 20 27 | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | 5 12 19 26 | Ça |
| Ç | 3 10 17 24 31 | 7 14 21 28 | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | 6 13 20 27 | Ç |
| Ca | 4 11 18 25 | 1 8 15 22 | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | 7 14 21 28 | Ca |
| C | 5 12 19 26 | 2 9 16 23 | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | 1 8 15 22 29 | C |
| Ş | 6 13 20 27 | 3 10 17 24 | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | 2 9 16 23 30 | Ş |
| B | 7 14 21 28 | 4 11 18 25 | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | 3 10 17 24 | B |

# 2018

| | |
|---|---|
| 1-2 Yanvar | Yeni il bayramı |
| 20 Yanvar | Ümumxalq Hüzn Günü |
| 8 Mart | Beynəlxalq Qadınlar Günü |
| 20-24 Mart | Novruz bayramı |
| 9 May | Faşizm üzərində Qələbə Günü |
| 28 May | Respublika Günü |
| 15 İyun | Milli Qurtuluş Günü |
| 15-16 İyun | Ramazan bayramı |
| 26 İyun | Silahlı Qüvvələr Günü |
| 22-23 Avqust | Qurban bayramı |
| 9 Noyabr | Dövlət Bayrağı Günü |
| 31 Dekabr | Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü |

| | İYUL | AVQUST | SENTYABR | OKTYABR | NOYABR | DEKABR | |
|---|---|---|---|---|---|---|---|
| Be | 2 9 16 23 30 | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | Be |
| Ça | 3 10 17 24 31 | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | Ça |
| Ç | 4 11 18 25 | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | Ç |
| Ca | 5 12 19 26 | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | Ca |
| C | 6 13 20 27 | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | C |
| Ş | 7 14 21 28 | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | Ş |
| B | 1 8 15 22 29 | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | B |

## "AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC
## AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI

*2018-ci il üçün fəlsəfə doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya aşağıdakı ixtisaslara qəbul elan edir:*



**1. 3319.03 - "Gəmiqayırma və gəmi təmiri texnologiyası"**
**doktoranturaya - 2 yer (odənişli )**
**dissertanturaya - 1 yer (odənişli )**

**2. 3319.01 - "Gəmiçilik texnikası"**
**doktoranturaya - 2 yer (odənişli )**
**dissertanturaya - 2 yer(odənişli )**

**3. 3319.02 - "Gəmiçilik və su nəqliyyatının istismarı"**
**doktoranturaya - 1 yer (odənişli )**

*2018-ci il üçün elmlər doktoru hazırlığı üzrə dissertanturaya aşağıdakı ixtisasa qəbul elan edir:*
**3319.03 – "Gəmiqayırma və gəmi təmiri texnologiyası" - 1 yer (odənişli )**

Doktoranturaya və dissertanturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 iyul 2010-cu il tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları" na uyğun olaraq həyata keçirilir.

1. Doktorantura və dissertanturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikası vətəndaşları qəbul edilirlər.

2. Doktoranturaya və dissertanturaya qəbul üçün aşağıdaki sənədlər təqdim edilir:
**- ərizə (Azərbaycan Dövlət Dəniz Akademiyasının rektorunun adına);**
**- kadrların şəxsi-qeydiyyat vərəqi;**
**- tərcümeyi-hal;**
**- 3 ədəd fotoşəkil (3x4sm ölçüdə)**
**- iş yerindən xasiyyətnamə (işləyənlər üçün);**
**- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;**
**- çap olunmuş elmi işlərin siyahısı (forma 2.4) və ya seçilmiş ixtisas üzrə referat;**
**- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq (notarial) qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikası və xarici ölkə vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması barədə şəhadətnamə);**
**- şəxsiyyəti təsdiq edən sənədin surəti.**

Doktoranturaya fəlsəfə doktoru proqramı üzrə qəbul olunmaq istəyənlər ixtisas fənnindən, xarici dildən və fəlsəfədən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər.

Dissertanturaya qəbul olunmaq istəyənlərlə müsabiqə keçirilir.

Dissertant kimi təhkim olunmaq istəyən şəxslər elmi və elmi-pedaqoji iş stajına malik olmalıdırlar.

Elmlər doktoru proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və "Fəlsəfə doktoru" və ya "Elmlər namizədi" elmi (alimlik) dərəcəsi olan və buna uyğun diplomun müvafiq (notarial) qaydada təsdiq edilmiş surətini təqdim edən Azərbaycan Respublikasının vətəndaşları qəbul edilir. Həmin şəxslərlə müsahibə keçirilir.

Sənədlər 31.01.2018-ci il tarixədək Bakı şəhəri, Zərifə Əliyeva küçəsi, 18 ünvanında yerləşən Azərbaycan Dövlət Dəniz Akademiyasının əsas binasında (207-ci otaqda) qəbul olunur.

Tel.:(012) 493-36-44 (113), (012) 493-63-07

***REKTORLUQ***

## AZƏRBAYCAN İDMAN JURNALİSTLƏRİ ASSOSİASİYASI 2017-Cİ İLİN İDMAN LAUREATLARINI MÜKAFATLANDIRIB

***Azərbaycan İdman Jurnalistləri Assosiasiyası (AİJA) çoxillik ənənəsinə sadiq qalaraq, 2017-ci ilin idman laureatlarını mükafatlandırıb.***



Tədbirdə çıxış edən AİJA-nın prezidenti Eldar İsmayılov ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışıb, idmançılarımızın beynəlxalq arenada qazandıqları nailiyyətlər barədə məlumat verib. 2017-ci ilin Azərbaycanın idman həyatında mühüm uğurlarla yadda qaldığını diqqətə çatdıran E.İsmayılov ölkəmizin IV İslam Həmrəyliyi Oyunlarına, Formula-1 Azərbaycan Qran-Prisinə, qadın voleybol komandaları arasında Avropa çempionatına, eləcə də idmanın müxtəlif növləri üzrə dünya, Avropa çempionatlarına, beynəlxalq turnirlərə müvəffəqiyyətlə ev sahibliyi etdiyini vurğulayıb. O, milli komandamızın İslamiadada birinci pillədə qərarlaşmasını, həmçinin idmançılarımızın bu ili 851 medalla başa vurmalarını Azərbaycanın idman ölkəsi olmasının sübutu kimi dəyərləndirib.

AİJA-nın fəaliyyətindən söz açan E.İsmayılov bildirib ki, 1995-ci ildə yaradılan qurum Beynəlxalq İdman Mətbuatı Assosiasiyasında (AIPS) ölkəmizi uğurla təmsil edir. Assosiasiya 1996-cı ildən başlayaraq, idman mətbuatı və jurnalistləri arasında fərqlənənləri təltif edir.

Sonra qaliblərə mükafatlar təqdim olunub.

"Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ilin idman təşkilatçısı elan edilib.

Avropa Gimnastika İttifaqının prezidenti Fərid Qayıbov ilin idman xadimi seçilib.

Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ilin idmanı ən yaxşı işıqlandıran informasiya agentliyi elan olunub.

Anar Əhmədov ("Olimpiya dünyası"), Həbib Aslanov ("Futbol+"), Oqtay Bayramov ("Xalq qəzeti") və Vüqar Xeyrullayev (Apasport), Akif Ağayev ("Yeni həyat", Masallı) ilin idman jurnalistləri, Leyla Nağıbəyova ("Neftçi" futbol klubu) isə ilin fotoreportyoru nominasiyalarında mükafatlandırılıblar.

"Futbol+" ilin idman qəzet, "CBC Sport" isə telekanallar sırasında fərqlənib. İlin idman nəşri nominasiyasında Əbülqasım Novruzovun müəllifi olduğu "Şuşada voleybolu sevirdilər..." kitabı qalib seçilib.

Laureatlar sırasında Azərbaycan Velosiped İdman Federasiyasının mətbuat xidməti, həmçinin "sport24.az" və "1news.az" portalları da var.

"Rio-2016"nın gümüş mükafatçısı, güləşçi Mariya Stadnik, IV İslam Həmrəyliyi Oyunlarının üçqat qalibi, bədii gimnast Marina Durunda, "Bakı-2017"nin qalibi, taekvandoçu Patimat Abakarova, üçqat dünya çempionu, güləşçi Hacı Əliyev, üçqat dünya çempionu, bokçsu Məhəmmədrəsul Məcidov və dünya çempionu, taekvandoçu Milad Beigi Hərçəqani ilin idmançıları adına layiq görülüblər.

İlin komandası nominasiyasının qalibi "Qarabağ" futbol klubu, şahmat və cüdo üzrə millilər olub.

"Qarabağ" futbol klubunun baş məşqçisi Qurban Qurbanov, qadın voleybolçulardan ibarət Azərbaycan millisinin çalışdırıcısı Faiq Qarayev və gənclərdən ibarət cüdo üzrə millimizin baş məşqçisi Elçin İsmayılov ilin baş məşqçiləri elan ediliblər.

İlin idman hakimi Hicran Şərifov (güləş), idman azarkeşi isə Elşən Məmmədov olublar.

Sonra bir qrup şəxsə AİJA-nın 2018-2019-cu il üçün vəsiqələri təqdim olunub.

## 2017-Cİ İLİN ƏN YAXŞI İDMANÇILARI

***Beynəlxalq İdman Mətbuatı Assosiasiyası (AIPS) 2017-ci ilin ən yaxşı idmançılarının adlarını açıqlayıb.***

AIPS
INTERNATIONAL SPORTS PRESS ASSOCIATION
Founded in 1924

Assosiasiyanın rəsmi saytı xəbər verir ki, səslərin 19,94 faizini toplamış isveçrəli tennisçi Rocer Federer ilin ən yaxşı idmançısı hesab edilib. O, "Böyük dəbilqə"nin iki turnirinin – Avstraliya açıq çempionatının və Uimbldon turnirinin qalibi olub. İkinci yeri Madridin "Real" komandasının və Portuqaliya yığmasının futbolçusu Kriştianu Ronaldu (16,94%), üçüncü yeri "Barselona" və Argentina yığmasının oyunçuşu Lionel Messi (11,39%) tutub.

Qadınlar arasında ilin ən yaxşı idmançısı adına amerikalı tennisçi Serena Uilyams (13,99%) layiq görülüb. 2017-ci ildə o, Avstraliya açıq çempionatında qalib gəldikdən sonra hamilə olduğu üçün yarışlara qatılmayıb. İkinci yeri Macarıstandan üzgüçü Katinka Hossu (13,56%), üçüncü yeri amerikalı yüngül atlet Feliks Elisson tutub.

Xatırladaq ki, Avropa Klublar Assosiasiyası və Avropa Futbol Agentlikləri Assosiasiyası tərəfindən təsis olunmuş "Globe Soccer Awards"-ın açıqlamasına görə, Ronaldu 2017-ci ilin ən yaxşı futbolçusu hesab edilib.

## KEÇMİŞ FUTBOLÇU ÖLKƏSİNİN PREZİDENTİ SEÇİLİB

***1990-cı illərdə "Monako", "PSJ" və "Milan" klublarının şərəfini qorumuş məşhur futbolçu Corc Vea Liberiyanın prezidenti seçilib.***



"lemonade.fr" saytı bildirir ki, bu barədə Liberiya Milli Seçki Komissiyası ölkədə keçirilən seçkilərin ikinci turunda səslərin 98,1 faizini saydıqdan sonra məlumat yayıb.

Keçmiş futbolçu ikinci turda böyük səs çoxluğu ilə qalib gəlib. C.Vea səslərin 61,5 faizini qazanaraq rəqibi vitse-prezident Jozef Boakaini üstələyib (38,5 faiz).

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152

TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 120